# BMT taxıl sazişi üzrə görüşü təsdiqləməyib



**BMT Baş katibinin ofisi Rusiya, Türkiyə və Ukrayna nümayəndələrinin mayın 3-də beynəlxalq təşkilatın bayrağı altında taxıl sazişi müddətinin uzadılması ilə bağlı görüş barədə məlumatı təsdiqləməyib.**

"Report" TASS-a istinadən xəbər verir ki, bu barədə çərşənbə axşamı baş katibin mətbuat katibinin müavini Fərhan Hak bildirib.

"Sabah üçün planlaşdırılan heç bir görüşdən xəbərim yoxdur", - o deyib.



## Taksi sürücüləri ilə bağlı narazılıqlar getdikcə artır

Konkret bir orqan bu sahəni nəzarətə götürməli və əsas öhdəliyi sürücülərin psixoloji yoxlamadan keçirilməsi olmalıdır

Son zamanlar taksi sürücülərinin qeyri-etik hərəkətləri ictimaiyyət arasında böyük narazılıqlara səbəb olub. Əsasən zərif nəslin nümayəndələri taksi sürücülərin onlara əxlaqsız təklifləri barədə şikayətçidir.

(səh.3)

№ 75 (5836) 2023-cü il

Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 3 may 2023-cü il (çərşənbə)




# Baş nazir qərar imzalayıb

Hərbçilər narkoloji müayinələrdən keçiriləcək

**Hərbi-həkim ekspertizası haqqında Əsasnaməyə dəyişiklik edilib. Bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.**

Qərara əsasən, "Narkoloji xidmət və nəzarət haqqında" qanunun 24.4-cü maddəsinə uyğun olaraq müddətli həqiqi hərbi xidmətə çağırılan şəxslər çağırış dövründə qeydiyyatda olduqları dövlət tibb müəssisələri tərəfindən, bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olanlar bağlaşma imzalanmazdan əvvəl bağlaşma bağladıqları dövlət orqanlarının tibb müəssisələri tərəfindən, birbaşa kadr zabit heyətinə könüllü daxil olanlar həqiqi hərbi xidmətə daxil olmaları barədə əmr imzalanmazdan əvvəl kadr zabit heyətinə daxil olduqları dövlət orqanlarının tibb müəssisələri tərəfindən, həqiqi hərbi xidmət hərbi qulluqçuları isə (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) ildə bir dəfədən az olmayaraq xidmət keçdikləri dövlət orqanlarının tibb müəssisələri tərəfindən icbari narkoloji müayinədən keçiriləcəklər.



## Prezident və birinci xanım Ağdamda

İlham Əliyev və Mehriban Əliyeva rayonda salınacaq yeni yaşayış məhəllələrinin təməlini qoyublar

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva mayın 2-də Ağdam rayonuna səfər ediblər.**

Dövlətimizin başçısı "Azərişıq" ASC-nin Ağdam şəhərində Regional İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin təməlini qoyub.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Muğam Mərkəzinin, Ağdam şəhərində salınacaq 2-ci və 3-cü yaşayış məhəllələrinin, Ağdam şəhərində inzibati binanın təməlini qoyublar.

(səh.2)

## Avropa komissarı: "Azərbaycan Avropanın etibarlı tərəfdaşıdır"



**"Azərbaycan enerji təhlükəsizliyi sahəsində Avropanın etibarlı tərəfdaşıdır".**

Bunu Avropanın enerji məsələləri üzrə komissarı Kadri Simson Azərbaycanın energetika naziri Pərviz Şahbazovla görüşündən sonra rəsmi tviter səhifəsində yazıb.

"Azərbaycan ümumavropa qaz tədarükçüsüdür. Eyni zamanda, əməkdaşlığımız qaz sektorundan çox-çox kənara çıxır, çünki bərpa olunan enerji mənbələri sahəsində hələ də böyük potensial var", - Avropa komissarı qeyd edib.

(səh.2)

# Ceyhun Bayramovla Mirzoyan bir araya gəlib

ABŞ-da aparılan sülh danışıqlarının təfərrüatları açıqlanmır



**Azərbaycan və Ermənistanın xarici işlər nazirləri arasında ABŞ-da keçirilən danışıqlar bir neçə gün davam edəcək.**

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə məlumat verib.

"Danışıqların əsas mövzusunu sülh sazişi təşkil edir. Hazırda təfərrüatları açıqlaya bilmirik. Görüşlər bir neçə gün davam edəcək", - o deyib.

Dünən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Ermənistan XİN rəhbəri Ararat Mirzoyan arasında danışıqlar başlayıb. Görüş ABŞ-ın Arlinqton şəhərində keçirilib.

(səh.3)

# Yerli TV-lərə baxanların sayı ən azı 10 dəfə azalıb

Deputatlar bayağı verilişlərə görə telekanalları tənqid ediblər



**Parlamentin dünənki iclasında "İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının tərkibində dəyişiklik edilməsi haqqında" məsələ də müzakirə olunub.** Çıxış edən deputatlar bayağı verilişlərə görə telekanalları tənqid ediblər. Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bildirib ki, yerli TV-lərə baxanların sayı 5-6 il öncəki tamaşaçıların sayı ilə müqayisədə ən azı 10 dəfə azalıb. Səbəblər dərin və çoxşaxəlidir: "Onlardan biri uğurlu proqram formatları yarada bilməmələri, verilişlərin yayım ənənəsi, milli xüsusiyyətləri, janrı, kontenti, hədəf auditoriya, aparıcı peşəkarlığı, təqdimat tərzi və s. aspektlərlə bağlıdır.

(səh.5)



## SEPAH-ın silah anbarında partlayış zamanı 2 nəfər ölüb

**İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) Damğan şəhəri yaxınlığındakı hazırlıq və dəstək mərkəzində partlayış olub.**

APA xəbər verir ki, bu barədə SEPAH-ın Damğan Korpusu məlumat yayıb.

Məlumatda bu gün axşam saatlarında SEPAH-ın Damğan şəhərindən kənarda yerləşən korpuslarından birində silah anbarında partlayış baş verdiyi bildirilir.

Əl-Ərəbiyyə kanalı partlayışda 2 nəfərin öldüyü və çox sayda yaralının olduğu barədə məlumat verib.

Partlayışın səbəbləri araşdırılır.

# 3 nəfər vəfat edib

28 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 28 yeni yoluxma faktı qeydə alınıb, 19 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 3 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 831 414 nəferin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 820 892 nəfər müalicə olunaraq sağalıb, 10 245 nəfər vəfat edib, aktiv xəstə sayı 277 nəfərdir.

*Ölkədə son sutka ərzində 1237, hazırkı dövrədək isə 7 592 173 test aparılıb.*

## Bakıda 21 yaşlı oğlan özünü asdı



**Sabunçu rayonunda 21 yaşlı oğlan evində ölü tapılıb.**

Bakıxanov qəsəbəsi, Əhmədbəy Ağayev küçəsində yaşayan, 2002-ci il təvəllüdlü Emin Əminovun eyvandan asılmış meyiti aşkarlanıb.

Faktla bağlı Sabunçu rayon Prokurorluğunda araşdırma aparılır.



## "Bu, çox ciddi məsələdir"

Sabir Rüstəmxanlı: "Hüquq-mühafizə orqanlarımız Azərbaycandakı HDP-çiləri nəzarətdə saxlasınlar"

(səh.2)



## İndiki sülh danışıqları əvvəlkilərdən köklü surətdə fərqlənir

Birincisi, Azərbaycan Laçında sərhəd-nəzarət buraxılış məntəqəsi qurub, bu prosesləri dəyişdirir

(səh.4)



# Prezident və birinci xanım Ağdamda

## İlham Əliyev və Mehriban Əliyeva rayonda salınacaq yeni yaşayış məhəllələrinin təməlini qoyublar

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva mayın 2-də Ağdam rayonuna səfər ediblər.**

Dövlətimizin başçısı "Azərişıq" ASC-nin Ağdam şəhərində Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin təməlini qoyub.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Muğam Mərkəzinin, Ağdam şəhərində salınacaq 2-ci və 3-cü yaşayış məhəllələrinin, Ağdam şəhərində inzibati binanın təməlini qoyublar.

Daha sonra dövlətimizin başçısı Bərdə-Ağdam dəmir yolu xəttinin tikintisi ilə tanış olub.

***



Mayın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində salınacaq 2-ci yaşayış məhəlləsinin təməlinin qoyulması mərasimində iştirak ediblər.

Dövlət başçısına və birinci xanıma yaşayış məhəlləsi barədə məlumat verilib.

Bildirilib ki, ümumi sahəsi 14 hektara yaxın olan yaşayış məhəlləsinin ərazisinin böyük bir hissəsi yaşıllıq zonasından ibarət olacaq. Məhəllə Ağdamın mərkəzi küçəsində, şəhərin təsdiq edilmiş ümumi Baş planına uyğun salınacaq. Bu məhəllədə tikiləcək yaşayış binalarında ümumilikdə 1268 mənzil olacaq. Mənzillərdən 114-nün birotaqlı, 464-nün ikiotaqlı, 536-nın üçotaqlı, 154-nün isə dördotaqlı olması planlaşdırılır.

Məhəllədəki binaların inşasında modern memarlıq yanaşmalarından və milli naxış elementlərindən istifadə olunacaq. Burada idman meydançalarının, istirahət guşələrinin, velosiped dayanacaqlarının və digər zəruri infrastruktur obyektlərinin yaradılması, geniş yaşıllıq zolaqlarının salınması nəzərdə tutulur.

Bütün binalar daimi su, elektrik və yüksəksürətli internet ilə təmin ediləcək. İstilik və isti su təchizatı mərkəzi qazanxana sistemi ilə həyata keçiriləcək. Binaların inşasında istilik tutumlu təbii inşaat materiallarından istifadə olunacaq.

*Dövlət başçısı Ağdam şəhərində 2-ci yaşayış məhəlləsinin təməlini qoyub.*

Mayın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində salınacaq 3-cü yaşayış məhəlləsinin təməlinin qoyulması mərasimində də iştirak ediblər.

Dövlətimizin başçısına və xanımına əvvəlcə Ağdam şəhər 1 saylı məktəbin yeni binasında tikinti işlərinin gedişi barədə məlumat verilib. Bildirilib ki, 960 şagird yerlik bu məktəbdə təhsil üçün hər cür şərait yaradılacaq.

Qeyd edək ki, bu məktəbin binasının təməli 2021-ci il mayın 28-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Fəaliyyətə 1883-cü ildə başlayan bu təhsil ocağı Qarabağ bölgəsinin ən qədim məktəbidir.

Məlumat verilib ki, ümumi sahəsi 17 hektara yaxın olan yaşayış məhəlləsinin salınacağı ərazinin bir hissəsi çoxfunksiyalı zonanı əhatə edir və bu hissələrdə əhalinin sıxlığı azdır. Bu məhəllədə tikiləcək yaşayış binalarında ümumi sahəsi 120 min kvadratmetr təşkil edən 1239, o cümlədən 25 birotaqlı, 396 ikiotaqlı, 533 üçotaqlı, 285 dördotaqlı mənzil olacaq.

Yaşayış məhəlləsindəki binaların inşasında istilik tutumlu təbii materiallardan istifadə olunacaq. Binalar daimi su, elektrik və yüksəksürətli internet ilə təmin ediləcək. İstilik və isti su təchizatı mərkəzi qazanxana sistemi ilə həyata keçiriləcək.

Məhəllədə, həmçinin idman meydançaları, velosiped və avtomobil dayanacaqları yaradılacaq.

Dövlətimizin başçısı Ağdam şəhərində 3-cü yaşayış məhəlləsinin təməlini qoyub.

# Hikmət Hacıyev Brüsseldə NATO Baş katibinin köməkçisi ilə görüşüb

## Prezidentinin köməkçisi NATO rəsmilərini Ermənistanla sərhəddə NBM-in təsis edilməsi barədə məlumatlandırıb




**Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev mayın 2-də NATO-nun mənzil-qərargahına səfər edib.**

Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyindən verilən məlumata görə, səfər Azərbaycan-NATO tərəfdaşlığının əsasını təşkil edən Sülh Naminə Tərəfdaşlıq Çərçivə Sənədinin imzalanmasının 29-cu ildönümü ərəfəsinə təsadüf edib.

H.Hacıyev səfər çərçivəsində NATO mənzil-qərargahında müttəfiq dövlətlərin iştirakı ilə "NATO+Azərbaycan" formatında siyasi dialoqda iştirak edib. O, həmçinin NATO Baş katibinin kəşfiyyat və təhlükəsizlik məsələləri üzrə köməkçisi Devid Katlerlə ikitərəfli görüş keçirib.

Prezidentin köməkçisi keçirilmiş görüşlər zamanı Azərbaycan-NATO tərəfdaşlığının cari vəziyyəti və perspektivləri, eləcə də regional məsələlər ətrafında müzakirələr aparıb. O, iştirakçılara Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması istiqamətində atılan addımlar, işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən bərpa və quruculuq işləri, mina problemi, Azərbaycan-Ermənistan sərhədində nəzarət-buraxılış məntəqəsinin təsis edilməsi və digər qarşılıqlı maraq doğuran xüsuslar haqqında məlumat verib. Tərəflər arasında Azərbaycanın nəqliyyat imkanları və enerji təchizatındakı önəmli rolu barədə fikir mübadiləsi aparılıb.

NATO üzv dövlətləri Azərbaycanın etibarlı və önəmli tərəfdaş ölkə olduğunu vurğulayıb. Müttəfiq dövlətlər ölkəmizin Sülh Naminə Tərəfdaşlıq proqramında aktiv iştirakını, Alyansın beynəlxalq sülhməramlı əməliyyatlarına töhfələrini, əlalxüsus Əfqanıstan missiyasına dəstəyini, qarşılıqlı operativ uzlaşmanın artırılması və müdafiə islahatları sahəsində əldə etdiyi tərəqqini təqdir edib. Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə töhfələri görüş iştirakçıları tərəfindən yüksək qiymətləndirilib.

H.Hacıyev səfər çərçivəsində Azərbaycan Respublikasının NATO yanında nümayəndəliyində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində onun NATO-Azərbaycan münasibətlərinin inkişafına əvəzsiz töhfələrini əks etdirən memorial-fotostendin açılış mərasimində iştirak edib.



### Avropa komissarı: "Azərbaycan Avropanın etibarlı tərəfdaşıdır"

**"Azərbaycan enerji təhlükəsizliyi sahəsində Avropanın etibarlı tərəfdaşıdır".**

"Report" xəbər verir ki, bunu Avropanın enerji məsələləri üzrə komissarı Kadri Simson Azərbaycanın energetika naziri Pərviz Şahbazovla görüşündən sonra rəsmi tviter səhifəsində yazıb.

"Azərbaycan ümumavropa qaz tədarükçüsüdür. Eyni zamanda, əməkdaşlığımız qaz sektorundan çox-çox kənara çıxır, çünki bərpa olunan enerji mənbələri sahəsində hələ də böyük potensial var", - Avropa komissarı qeyd edib. Onun sözlərinə görə, Avropa bu qışı yarım dolu qaz ehtiyatları, daha stabil qaz qiymətləri və gələn qış üçün müsbət proqnozla başa vurub.

"Biz buna Aİ ölkələrinin vətəndaşlarının və Azərbaycan kimi etibarlı tərəfdaşlarımızın atdığı addımlar sayəsində nail ola bildik. Biz strateji əməkdaşlığımızı davam etdirmək əzmindəyik", - K.Simson fikrini yekunlaşdırıb.

### Qarabağ iqtisadi rayonunda ilk DOST mərkəzi açılacaq




**Tezliklə Bərdə şəhərində növbəti DOST mərkəzi istifadəyə veriləcək.**

Bu barədə DOST Agentliyinin mətbuat katibi Şahin Əliyev APA-nın sorğusuna cavab olaraq bildirib.

O qeyd edib ki, Mərkəzin yaxın zamanlarda vətəndaşlara xidmətə başlayacağı gözlənilir:

"Bu, Qarabağ iqtisadi rayonunda ilk DOST mərkəzi olacaq. Qarabağda daha bir DOST mərkəzi Şuşa şəhərində fəaliyyət göstərəcək. Mərkəzin yerləşəcəyi binada hazırda təmir işləri aparılır. Eyni zamanda Qubada və Naxçıvanda DOST mərkəzləri üçün binaların tikintisi davam edir".

*Xatırladaq ki, hazırda beşi Bakıda, biri Abşeron rayonunda olmaqla altı DOST mərkəzi fəaliyyət göstərir. Həmçinin Şərqi Zəngəzur İqtisadi rayonunda, Zəngilanın Ağalı kəndində Smart DOST məntəqəsi sakinlərin ixtiyarına verilib.*

# Ermənistanın mina terroru davam edir

## Beynəlxalq instansiyalar isə susmağa üstünlük verir



**"Beynəlxalq instansiyalar Ermənistana ciddi təzyiq göstərməlidir". Bunu millət vəkili Elşad Mirbəşiroğlu deyib. Deputat bildirib ki, Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri mina partlaması nəticəsində həlak olanlarla bağlı narahatlıqlarını ifadə etsələr də, bunun Ermənistan tərəfindən törədildiyini səsləndirmirlər:**

"Ermənistan ölkəmizə qarşı mina terrorunu sistemli şəkildə davam etdirməkdədir. Ötən əsrin 90-cı illərindən bu günə qədər 3300 vətəndaşımız Ermənistanın mina terrorunun qurbanı olub. Təkcə son bir həftə ərzində 4 vətəndaşımız mina partlaması nəticəsində həlak olub".

Parlament üzvü əlavə edib ki, Ermənistan özünü cəzasızlıq şəraitində hiss edir: "Ermənistan beynəlxalq hüququn normalarını və beynəlxalq konvensiyaları kobud şəkildə pozmağa davam edir. Beynəlxalq instansiyalar isə susmağa üstünlük verir. Bunun nəticəsində beynəlxalq mina təhlükəsizliyinin təmin olunması imkanları ciddi şəkildə məhdudlaşır. Ona görə də Ermənistana ciddi təzyiqlər göstərilməlidir".

*Xatırladaq ki, mayın 1-də Cocuq Mərcanlıda 1964-cü il təvəllüdlü Oktay Alışov minaya düşərək həlak olub.*

**İsmayıl**

# "Bu, çox ciddi məsələdir"

## Sabir Rüstəmxanlı: "Hüquq-mühafizə orqanlarımız Azərbaycandakı HDP-çiləri nəzarətdə saxlasınlar"



**"14 mayda Türkiyədə keçiriləcək seçkilərlə bağlı bütün dünyanın diqqəti qardaş ölkədədir". Bu sözləri Milli Məclisin dünənki iclasında millət vəkili, Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı deyib.**

Parlament üzvü vurğulayıb ki, Azərbaycan ictimaiyyəti bu seçkilərin nəticələri ilə xüsusi olaraq maraqlanır:

"Hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın yenidən seçilməsini ürəkdən istəyirik. Ancaq bir məqama diqqət çəkmək istəyirəm. Mayın 9-da xaricdə yaşayan Türkiyə vətəndaşlarının seçkidə iştirakı bitəcək. Artıq Avropa və dünyanın bir çox ölkəsində yaşayan türklər seçkilərə qatılıblar. Azərbaycanda yaşayan Türkiyə vətəndaşları da səslərini verməkdədir. Ötən seçkini yaxşı xatırlayıram. Ölkəmizdə yaşayan Türkiyə vətəndaşlarının təxminən üçdə biri, 25 faizdən çoxu seçkidə Xalqların Demokratik Partiyasına HDP) səs vermişdi. Azərbaycanda HDP-yə səs verənlər.. HDP-nin terrorçu PKK ilə əlaqəli olduğunu nəzərə alsaq, bu faktın bizim üçün nə qədər ciddi təhlükə olduğunu bilməliyik. Ona görə də istərdim ki, hüquq-mühafizə orqanlarımız Azərbaycandakı HDP-çiləri nəzarətdə saxlasınlar. Bu, çox ciddi məsələdir".

**İsmayıl**

# Ceyhun Bayramovla Mirzoyan bir araya gəlib

## ABŞ-da aparılan sülh danışıqlarının təfərrüatları açıqlanmır



**Azərbaycan və Ermənistanın xarici işlər nazirləri arasında ABŞ-da keçirilən danışıqlar bir neçə gün davam edəcək.**

**Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə məlumat verib.**

"Danışıqların əsas mövzusunu sülh sazişi təşkil edir. Hazırda təfərrüatları açıqlaya bilmirik. Görüşlər bir neçə gün davam edəcək", - o deyib.

Dünən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Ermənistan XİN rəhbəri Ararat Mirzoyan arasında danışıqlar başlayıb. Görüş ABŞ-ın Arlington şəhərində keçirilib.

Qeyd edək ki, mayın 1-də ABŞ-ın paytaxtı Vaşinqton şəhərində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov, ABŞ dövlət katibi Entoni Blinken və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan arasında üçtərəfli görüş keçirilib. Daha sonra Corc Şultz adına Xarici İşlər üzrə Milli Təlim Mərkəzində iki ölkənin xarici işlər nazirlərinin ikitərəfli görüşü keçirilib.

XİN rəhbərlərinin danışıqlarının bir neçə gün davam edəcəyi bildirilib.

*Qeyd edək ki, mayın 1-də ABŞ-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov, Ermənistanın xairic işlər naziri Ararat Mirzoyan və ABŞ-ın dövlət katibi Entoni Blinken arasında üçtərəfli görüş keçirilib. Bundan sonra Corc Şults adına Milli Xarici Əlaqələr Tədris Mərkəzində iki ölkənin XİN rəhbərinin ikitərəfli görüşü keçirilib.*

# DTX əməkdaşları "Heydər zirvəsi"nə yürüş təşkil ediblər




**Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Dövlət Təhlükəsizliyi Xidmətinin bir qrup əməkdaşı Ulu Öndərin adını daşıyan, Böyük Qafqaz sıra dağlarının Başdağ silsiləsinin Qızıl Qaya massivində, dəniz səviyyəsindən 3751 metr hündürlükdə yerləşən "Heydər zirvəsi"nə növbəti yürüş təşkil edib.**

Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, yürüş iştirakçıları relyef və iqlim şəraitinin sərt və mürəkkəb olmasına baxmayaraq, müəyyən olunmuş yerə vaxtında çatıb, dahi şəxsiyyətin xatirəsini dərin ehtiramla anıblar. Onlar Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldaraq, Dövlət Təhlükəsizliyi Xidmətinin adı və emblemi olan plakatı, həmçinin işğaldan azad olunmuş ərazilərdəki təbii yataqlardan götürülən qaya parçasından hazırlanmış və üzərində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünü əks etdirən xatirə daş lövhəsini zir-



# ABŞ son günlər xüsusi fəallıq sərgiləyir

## Ancaq konkret sülhdən, hansısa razılaşmadan danışmaq tezdir

**Mayın 1-də Vaşinqtonda Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov, ABŞ dövlət katibi Entoni Blinken və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan arasında üçtərəfli görüş keçirildi. Görüşdə regionda təhlükəsizlik, eləcə də Ermənistanla Azərbaycan arasında münasibətlərin nizamlanması ilə bağlı müzakirə aparıldı.**

Laçın yolundakı vəziyyət də müzakirə olundu. Danışıqların bir neçə gün davam edəcəyi barədə məlumat verildi. "Amerikanın səsi" ABŞ-nin yüksəkrütbəli diplomatlarına istinadla məlumat yayıb ki, Vaşinqtonda ABŞ-nin vasitəçiliyi ilə Ermənistan və Azərbaycanın xarici işlər nazirləri arasında "Münasibətlərin normallaşdırılması haqqında saziş" sənədi üzrə danışıqlar başlayıb. Müzakirə olunan sənəd "Münasibətlərin tənzimlənməsi razılaşması" adlanır. ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bono qeyd edib ki, tərəflər arasında başlayan müzakirələr konstruktiv şəkildə davam edir. Bononun sözlərinə görə, Münhen görüşü tərəflərin sülh prosesinə sadiq olduqlarını açıq şəkildə göstərib. Bono qeyd edir ki, Birləşmiş Ştatlar tərəflərin münasibətlərin tənzimləməsinə, birgə yaşayışa, iqtisadi əlaqələri və hətta regionda kollektiv təhlükəsizliyi gücləndirməyə çalışır. Onun sözlərinə görə, bu, bütün məsələlərin müzakirə olunduğu mürəkkəb və əhatəli prosesdir. Dövlət Departamentinin nümayəndəsinin bildiriyinə görə, tərəflər arasında müzakirə olunan məsələlərdən biri də hər iki ölkədə etnik azlıqlara münasibətdir. ABŞ Dövlət katibinin köməkçisinin müavini Erika Olson da ümid etdiyini bildirib ki, tərəflər bu həftə məsələnin həllinə nail olmaq üçün "birbaşa və səmimi" müzakirələr aparacaqlar: "Biz bu prosesi dəstəkləməyə sadiqik və davam edə biləcək bu mühüm dialoqa burada ev sahibliyi etməkdən şərəf duyuruq". Ermənistanla Azərbaycan arasında sülhün əldə olunmasında Moskva və Brüssellə yanaşı, Vaşinqtonun da diplomatik fəallığı nəzərdən qaçmır. İndiyədək ABŞ-də Dövlət katibi Entoni Blinkenin vasitəçiliyi ilə bir neçə görüş keçirilib. Aprelin 30-da isə

> Azərbaycan-Ermənistan arasında sülh prosesində irəliyə doğru addım atılması məsələsində ABŞ və Rusiya arasında da müəyyən anlaşma, razılıq olmalıdır

Blinken Prezident İlham Əliyevə zəng edib. Telefon danışığında Blinken İrəvanla Bakı arasında sülh müqaviləsi üzrə danışıqların əhəmiyyətini vurğulayıb. Bu xüsusda ABŞ-nin dəstəyinin davam edəcəyini önə çəkib. ABŞ-nin Hudzon İnstitutunun Yaxın Şərqdə Sülh və Təhlükəsizlik Mərkəzinin direktoru Maykl Doran bildirib ki, Entoni Blinken Azərbaycanla sülh müqaviləsi bağlaması üçün İrəvana təzyiq etməlidir. Onun sözlərinə görə, hazırkı danışıqlar Vaşinqtonun vasitəçi kimi rolunun əhəmiyyətli dərəcədə genişləndiyini ifadə edir ki, bu da təqdirəlayiqdir: "Ermənistan Qarabağı Azərbaycanın suveren ərazisi kimi tanımayana qədər məsələ həll olunmayacaq. Amma Ermənistanın Baş naziri Nikol Paşinyan belə bir addım atmağa hazır görünmür. İrəvan buna qərar versə, ABŞ və müttəfiqləri Qarabağda ermənilərin rifahını təmin etmək üçün onunla və Bakı ilə əməkdaşlıq edə bilər. Təəssüf ki, Blinken üçün Amerika erməni icmasının bir çox nüfuzlu dostları - senator Bob Menendez və Nümayəndələr Palatasının üzvü Adam Şiff İrəvana bu istiqamətdə təzyiq etməkdən imtina edirlər". Ekspertlərə görə, rəsmi Vaşinqton Ermənistan-Azərbaycan arasında vasitəçilik səylərinə həm də bölgəni Rusiyanın təsirindən çıxarmaq vasitəsi kimi baxır.

**Azad Vətən Partiyasının sədri Akif Nağı "Şərq"ə açıqlamasında bildirib ki, ABŞ son günlər xüsusi fəallıq sərgiləyir. Partiya rəhbəri vurğulayıb ki, Vaşinqton axırıncı dəfə 20 il bundan qabaq belə aktivlik nümayiş etdirir:**

"ABŞ yenidən təşəbbüsü ələ almağa çalışır. Əlbəttə, əsas məqsəd Rusiyanı bölgədən çıxarmaq, Cənubi Qafqazı, xüsusən Ermənistanı Moskvanın təsir dairəsindən uzaqlaşdırmaq niyyətindədir. Görünən odur ki, Nikol Paşinyan hökuməti də ABŞ ilə yaxınlaşmaqda maraqlıdır. İrəvanın Rusiyanın davamlı görüş təkliflərinə "yox" deməsi, Qərbin təşəbbüsünə meyl etməsi buna dəlalət edir. İlk dəfədir ki, tərəflər arasında məsələlər bu qədər ətraflı, geniş müzakirə olunur. Ola bilər ki, bir sıra məsələlərin dəqiqləşdirilməsi mümkün olsun. Görüş ərəfəsində ABŞ Dövlət katibi Entoni Blinkenin Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyanla telefonla əlaqə saxlaması da önəmlidir. Söhbət yaxın vaxtlarda sülh müqaviləsinin imzalanmasından gedir. Düzdür, ABŞ bu məsələdə həddindən artıq optimistdir. Hətta iddia edilir ki, Ağ Ev İrəvana təzyiq göstərir və ayın sonunadək Ermənistan razılıq verəcək və sənədə qol çəkəcək. Bu, o qədər inandırıcı olmasa da, prosesin irəliyə doğru gedəcəyi istisna olunmur".

**A.Nağı vurğulayıb ki, Rusiya da vəziyyəti görür və təşəbbüsü əldən vermək istəmir:** "Vaşinqton görüşündən sonra Moskvada da tərəflərin bir araya gəlməsi gözlənilir. Azərbaycan-Ermənistan arasında sülh prosesində irəliyə doğru addım atılması məsələsində ABŞ və Rusiya arasında da müəyyən anlaşma, razılıq olmalıdır. Ancaq hələlik bunun əlamətləri görünmür. O baxımdan konkret sülhdən, hansısa razılaşmadan danışmaq da tezdir".

**İsmayıl Qocayev**

# "MEDİAlab" layihəsi çərçivəsində şəbəkələşmə tədbiri keçirilib



**Medianın İnkişafı Agentliyinin təşkilatçılığı və 4 ali təhsil müəssisəsinin - Bakı Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti, Bakı Slavyan Universiteti və Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tərəfdaşlığı ilə həyata keçirilən "MEDİAlab" layihəsi çərçivəsində jurnalistika ixtisasında təhsil alan və jurnalistikaya marağı olan gənclər üçün AzTv-nin sədr müavini, aparıcı və jurnalist Rüfət Həmzəyevin iştirakı ilə şəbəkələşmə tədbiri keçirilib.**

Görüş zamanı Rüfət Həmzəyev televiziya və jurnalistika sahəsində olan təcrübəsindən danışıb, əzmkarlığın və zəhmətin önəmini vurğulayaraq gənclərə motivasiya verib.

İnteraktiv formada təşkil edilən tədbirdə gəncləri maraqlandıran suallar da cavablandırılıb.

# Taksi sürücüləri ilə bağlı narazılıqlar getdikcə artır

## Konkret bir orqan bu sahəni nəzarətə götürməli və əsas öhdəliyi sürücülərin psixoloji yoxlamadan keçirilməsi olmalıdır



**Son zamanlar taksi sürücülərinin qeyri-etik hərəkətləri ictimaiyyət arasında böyük narazılıqlara səbəb olub. Əsasən zərif nəslin nümayəndələri taksi sürücülərinin onlara əxlaqsız təklifləri barədə şikayətçidir. Hətta sürücülərin bəzən narkotik maddə aludəçisi olduğu da qeyd olunur.**

**Nəqliyyat eksperti Aslan Əsədov isə "Şərq"ə açıqlamasında deyib ki,**

Bakının nəqliyyat yükünün əsas hissəsi taksi xidmətinin çiyinlərindədir. Lakin bu sahədəki xoşagəlməz hadisələr insanlarda taksiyə inamsızlıq yaradır: "İctimai nəqliyyatın bir növü kimi həm sərnişinlərin təhlükəsizliyi, həm qəzalardan nisbətən sığortalanmaq, həm də kompensasiya ödəməkdən qurtulmaq üçün bu sahəyə nəzarət vacibdir. Dövlət orqanlarının resursları çərçivəsində taksi xidmətləri ilə bağlı müəyyən tənzimləmələr həyata keçirilməlidir. Ən azı yaşanan bu hadisələrlə bağlı ciddi ölçü götürülməlidir. Problemin həlli tək Dövlət Yol Polisi İdarəsinin işi deyil. Taksi şirkətlərini qeydə alan orqanlar da bu sahədə nəzarəti artırmalıdır. Taksi sürücüləri işə götürülən zaman onlarda psixoloji və tibbi heç bir yoxlama tələb olunmur. Sürücülüklə bağlı sənədlərdən əlavə məhkumluq haqqında arayış tələb olunur. Konkret bir orqan bu sahəni nəzarətə götürməli və əsas öhdəliyi sürücülərin psixoloji yoxlamadan keçirilməsi olmalıdır.

İşə götürülənlər "Nəqliyyat haqqında" qanuna və Nazirlər Kabinetinin 71 saylı qərarına əsasən, hər bir avtomobil reysdən qabaq texniki baxışdan, onun sürücüsü də tibbi baxışdan keçməlidir. Çox təəssüf ki, qanunvericiliyin həmin müddəası real icra olunmur. Səbəbi bu sahənin nəzarətsiz qalmasıdır".

**Şəymən**

# İrana çağırış

## "Kərimməçi"ləri Bakıya təhvil verin!



**Dünən Milli Məclisin növbəti plenar iclası keçirilib. İclasın gündəliyində 17 məsələ olub. Milli Məclisin spikeri Sahibə Qafarova Türkiyə səfərindən danışıb. Sədr bildirib ki, Türk Dövlətləri Parlament Assambleyasının (TürkPA) Ankarada keçirilən sessiyasında Ermənistanın mina terrorunu davam etdirdiyini, etnik zəmində qarşıdurmanı təşviq etdiyini, Rusiya sülhməramlılarının yerləşdiyi ərazilərdə təxribatlar törətdiyini nəzərə çatdırıb.**

Vurğulayıb ki, çıxışında təxribatların qarşısının alınması üçün Laçın yolunda sərhəddə Azərbaycanın nəzarət-buraxılış məntəqəsi qurduğunu bildirib. Spiker iclasda TürkPA-nın növbəti sessiyasının gələn ilin may-iyun aylarında Azərbaycanda keçirilməsi barədə qərar qəbul edildiyini də bildirib.

**"Bütün idman zallarında kameraların quraşdırılması məcburi olmalıdır"**

Sumqayıtda idman müəlliminin 7 yaşlı uşağa qarşı vəhşiliyi Parlamentdə qaldırılıb. Deputat Kamal Cəfərov bildirib ki, Sumqayıt İdman Məktəbində idman müəllimi 7 yaşlı uşağa qarşı vəhşilik törədib. Onun sözlərinə görə, görüntülərdən aydın olur ki, idman müəllimi Mehman Xəlilov təkcə Fəridə qarşı yox, digər azyaşlı uşaqlara da xüsusi qəddarlıqla davranır: "Uşaqların saçından, başından, qulağından tutaraq havaya qaldırır. Bu məsələyə xüsusi yanaşma vacibdir". Deputat qeyd edib ki, Gənclər və İdman Nazirliyi, Olimpiya Komitəsi və federasiyalar təcili müzakirələrə başlamalı, regionlarda fəaliyyət göstərən idman müəllimləri ilə profilaktiki söhbətlər aparılmalı, onlar üçün xüsusi davranış qaydaları hazırlamalıdır: "Bütün idman zallarında kameraların quraşdırılması məcburi olmalıdır. Məşq zamanı pis davranışla üzləşənlər mütləq 102-yə zəng edərək polisə məlumat verməlidir". Qeyd edək ki, idman müəlliminin 7 yaşlı uşağa qarşı amansız hərəkətlərinin əks olunduğu video sosial şəbəkələrdə yayılıb.

**"Biz mütləq normal qonşuluq münasibətləri qurmalıyıq"**

Deputat Ceyhun Məmmədov deyib ki, son günlər İran tərəfinin ölkəmizə qarşı siyasətində müsbət dəyişikliklər hiss olunur. Əvvəlki dövrlərdəki sərt bəyanat və ittihamlar azalıb. Parlament üzvü qeyd edib ki, hazırkı dönəmdə bu addımların atılması çox önəmlidir: "İnsanlarımız bilməlidir ki, nə İran bu bölgədən gedəndir, nə də Azərbaycan. Biz mütləq normal qonşuluq münasibətləri qurmalıyıq. Bir neçə gündür mediada davamlı olaraq ölkəmizdə "Kərimə dövləti" qurmağa çağırış edən, Azərbaycan gənclərini bu məqsədlə təşkilatlanmağa, təxribatlar törətməyə təhrik edən iki şəxsin Tohid İbrahimbəyli və Orxan Məmmədovun həbsi ilə bağlı məlumatlar yayılmaqdadır. Onları əksəriyyət tanıyır. Bu da məlumdur ki, İranda oturub ölkəmizə qarşı davamlı təxribat xarakterli çıxışlar edənlər yalnız bu iki şəxs deyil. Onlarla belə şəxslər İranda bu cür fəaliyyətləri zaman-zaman davam etdirirlər. Bu, əksər hallarda daha çox münasibətlər gərginləşəndə özünü büruzə verir. Düşünürəm ki, münasibətlərin daha da normallaşdırılması, gələcəkdə belə fəaliyyətlərin davam etdirilməməsi üçün İran tərəfi hər iki şəxsi ən qısa vaxtda Azərbaycana təhvil verməlidir. Bu edilmədiyi və onlar azad olunduğu təqdirdə həmin şəxslər ölkələrimiz arasında münasibətlərin gərginləşməsinə və pozulmasına yönəlmiş fəaliyyətləri, "Kərimə dövləti" ilə bağlı çağırışları davam etdirəcəklər".

**"Lənkəranın Sütəmurdov kəndindən keçən magistral yol Stalinqrad döyüşünü xatırladır"**

Deputat Rüfət Quliyev deyib ki, Azərbaycanda avtomobil yolları dünyada birincilər sırasındadır. Lakin Lənkəranın Sütəmurdov kəndindən keçən magistral yol Stalinqrad döyüşünü xatırladır. Onun sözlərinə görə, ayda bir neçə dəfə o yolda qəzalardan tələfatlar olur: "Mən dəfələrlə xahiş etmişəm ki, radarlar qoyulsun. Düzdür, yola işıqforlar qoyublar. Amma yenə də yolda avtomobillər sürətlə sürülür, qəzalar olur. Bir həftə əvvəl də orada iki uşağı avtomobil vurub, reanimasiyadadırlar. Bu problemlə bağlı Lənkəran Şəhər Polis İdarəsinin rəisinə də müraciət etmişəm, kömək edir. Ancaq radar olmasa, insanların yenə qəzaya düşməsi davam edəcək. Bu gün yeqin ki, daxili işlər nazirinə də məktub yazacam ki, o yola radar qoyulsun, insanların canı qurtarsın". Deputat mənzil tikintisi zamanı fırıldaqla məşğul olan şirkətlər barədə də danışıb: "Onlardan biri Bakı İnşaat MMC-dir. İnsanların pullarını alıblar, 4-5 aydır, mənzillərin təhvil verilməsini gecikdirirlər. Bu şirkətin rəhbəri Zahir Əsgərovdur. Mənim köməkçim onunla əlaqə saxlamaq istəyir, yayınır".

**"Veteranların müavinəti 50 manat artırılsın"**

Deputat Siyavuş Novruzov deyib ki, bu ay büdcəyə yenidən baxılacaq: "Büdcədə artımlar var, ona görə də hesab edirəm ki, büdcədə veteranlarımız nəzərə alınmalıdır. Birinci və İkinci Qarabağ müharibəsi nəticəsində 80 minə yaxın veteranımız var. Onlar 80 manat müavinət alırlar. Heç olmasa, onların müavinətlərinə büdcədən 50-70 manat ayrılmalıdır. Ayrılan müavinətlər onların xərclərini təmin etmir. Bu rəqəmlər təsdiq olunandan sonra kommunal xərclər də çox artıb. Ona görə müavinətin 80 manatdan 130 manata çatdırılması məqsədəuyğun olar".

**"Sərhəddə buraxılış məntəqəsinin qoyulması təhlükəsizliyin qorunması baxımından vacibdir"**

Deputat Mahir Abbaszadə bildirib ki, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qoyulması təhlükəsizliyin və sülhün bərpa olunması baxımından çox vacibdir. Parlament üzvü Prezidentin verdiyi anonslara diqqət çəkərək, Zabux, Sus kəndlərinin bərpası və məcburi köçkün düşmüş insanların geri qayıtması prosesinə toxunub: "Köçürülmüş insanlar üçün cənab Prezidentin tapşırığı ilə evlərin tikilməsi, infrastrukturun qurulması və sair məsələlərlə bərabər həm də təhlükəsizliyin qorunması da mühümdür. Sərhəd-buraxılış məntəqəsinin qurulması göstərir ki, Azərbaycan dövləti köçürüləcək insanların təhlükəsizliyini yüksək səviyyədə, Azərbaycanın silahlı qüvvələri tərəfindən həyata keçirəcək".

**"Kəlbəcərdə tibb məntəqəsi yaradılmalı, əhalinin səfərləri təşkil olunmalıdır"**

Millət vəkili Aqil Məmmədov işğaldan azad edilmiş Kəlbəcər rayonunda tibb məntəqəsinin təşkil olunması ilə bağlı təşəbbüslə çıxış edib: "Kəlbəcər rayonuna məxsus idarə və müəssisələrin bir qismi Kəlbəcərdə artıq fəaliyyətlərini qismən də olsa bərpa edib, işlərini davam etdirirlər. Əlavə olaraq yaz və yay mövsümündə təsərrüfatla məşğul olan vətəndaşlarımızın mal-qara sürülərinin, arı ailələrinin həmin ərazilərin yaylaqlarına çıxarılması üçün imkanlar yaradılır. Əlbəttə, bunlar hamısı təqdirəlayiq hallardır. Aldığımız məlumata görə, xüsusən də yay aylarında 10 mindən artıq insan Kəlbəcərdə fəaliyyət göstərir. Lakin xəstələnmə, tibbi yardıma ehtiyacın olması halları da qaçılmazdır. Odur ki, vətəndaşlarımızın istəyi ondan ibarətdir ki, ərazidə ilkin tibbi yardım göstərilməsi üçün lazımi şərait yaradılsın. Ona görə də Səhiyyə Nazirliyindən, TƏBİB rəhbərliyindən xahiş edirik ki, vətəndaşlarımızın bu istəklərini nəzərə alsınlar. Sakinlərimizin ikinci müraciəti işğaldan azad edilmiş ata-baba yurdlarını və əzizlərinin qəbrini ziyarət edilməsinə şəraitin yaradılması ilə əlaqədardır. Vətəndaşlarımızın istəyini nəzərə alıb aidiyyəti qurumlardan xahiş edirəm ki, ilk növbədə şəhid ailə üzvləri, qaziləri, yaşlı insanları nəzərə almaqla, planlı şəkildə, təhlükəsizliyi təmin etməklə, heç olmasa, həftədə bir dəfə bu cür səfərlərin təşkil edilməsinə dəstək olsunlar".

**"Azərbaycan xalqının hüququ olsaydı, Ərdoğanı dəstəkləyərdi"**

Deputat Elman Nəsirov deyib ki, bu gün dünyada dövlətlər arasında etimadsızlıq formalaşıb. Azərbaycan-Türkiyə münasibətləri isə bunun əksinə nümunədir: "Əgər Azərbaycan xalqının hüququ olsaydı, Türkiyədə prezident seçkilərində mütləq əksəriyyət Rəcəb Tayyib Ərdoğanı dəstəkləyərdi. Aprelin 29-da Türkiyədə "Teknofest"də Prezident İlham Əliyevin iştirakı göstərir ki, Azərbaycan-Türkiyə münasibətləri özünün ən pik nöqtəsindədir. Biz indiki səviyyəyə heç zaman çatmamışıq. Dövlətlərimiz dost, qardaşdır. Ulu Öndərin "bir millət iki dövlət" anlayışına Prezident İlham Əliyevin "bir yumruq" anlayışını da əlavə etməsi, bizi sevən ölkələrə də çağırışdır ki, bir yumruq kimi birləşmək lazımdır. Kahramanmaraş şəhərinin yenidən qurulmasında da Prezidentin səslendirdiyi fikirlər türk dünyasında müsbət qarşılanıb".

**İsmayıl Qocayev**




# Ermənistandan tələb olunan dialoq və sülhə gəlməkdir

## Azərbaycan Qarabağa necə sahibləndiyini və burada söz sahibi olduğunu bir daha sübut etdi

**Ermənistan tarixə qovuşmuş Qarabağ münaqişəsini "etnik münaqişə" kimi davam etdirməyə cəhd edir. Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə aparması heç də uzaq tarixi keçmiş deyil. Bu hərbi cinayətləri tutarlı tarixi faktlar təsdiq edir. Ayrıca, istər Qərbi Azərbaycanda, istərsə də Qarabağda etnik təmizləməyə məruz qalan şahid qismində minlərlə soydaşımız var.**

Prezident İlham Əliyev dəfələrlə beynəlxalq tribunlarda Ermənistanın Azərbaycana qarşı etnik təmizləmə siyasəti apardığını gündəmə gətirib. Yəni Ermənistan nə qədər cəhdlər etsə də, üzərindəki bu tarixi ləkəni silə bilməz.

**Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi İctimai Birliyinin sədri Fuad Hüseynzadə "Şərq"ə açıqlamasında bildirib ki, əslində, bununla rəsmi İrəvan normallaşma prosesinin məcrasını dəyişməyə çalışır. Ekspertin sözlərinə görə, Ermənistan hökuməti dəfələrlə danışıqların formatını dəyişdirməyə cəhdlər edib:** "Hələ 44 günlük Vətən müharibəsindən əvvəl də bu addımlar atılıb. Müharibədə məğlub olduqdan sonra Ermənistan üçtərəfli bəyanat imzalayaraq üzərinə öhdəliklər götürüb. İndi bu öhdəlikləri yerinə yetirməyə siyasi iradəsi çatmayan Ermənistanın Baş naziri Nikol Paşinyan son zamanlar Azərbaycana qarşı avantürsit çıxışlar edir. Son olaraq Nikol Paşinyan aprelin 29-da ABŞ dövlət katibi Entoni Blinkenlə telefon danışığında Azərbaycan tərəfinin Laçın dəhlizində atdığı addımları "etnik təmizləmə" kimi qələmə verməyə çalışıb. Paşinyan bundan bir müddət əvvəl Rusiya Prezidenti Vladimir Putin, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişellə də telefon danışığında bu kimi uydurma iddialar səsləndirib. Ümumiyyətlə, dünya erməni lobbisi hazırda Azərbaycana qarşı bu yöndə sərsəm iddialarla çıxışlar edirlər. Xüsusən də Amerika Erməniləri Milli Komitəsi (ANCA) beynəlxalq aləmi aldadaraq Laçın-Xankəndi yolunda ekofəalların etiraz aksiyasını ermənilərin "blokada"sı kimi təqdim etdi. Bu baxımdan erməni lobbisinə əsasən ABŞ və Böyük Britaniya parlamentariləri dəstək verirlər. Hətta bununla bağlı bir neçə dəfə bu ölkələrin deputatları uydurma bəyanatlar da yayıblar".

**F.Hüseynzadə əlavə edib ki, son zamanlar ermənilər tərəfindən separatist və təxribat xarakterli addımların atılması müşahidə olunur:** "Əlbəttə ki, bunun səbəbi məlumdur. Ötən ilin dekabrından Laçın-Xankəndi yolunun sonunda etiraz aksiyaının keçirilməsi, aprelin 23-də isə elə eyni yolun başlanğıcında Azərbaycan tərəfindən sərhəd-nəzarət buraxılış məntəqəsinin qurulması ermənilərdə belə aqressiya yaradıb. Bununla Azərbaycan Qarabağda qanusuz daşımaların və giriş-çıxışın, eləcə də separatçılığın qarşısını almış olacaq. Azərbaycan Qarabağa necə sahibləndiyini və burada söz sahibi olduğunu bir daha sübut etdi. Ermənistandan isə tələb olunan dialoq və sülhə gəlməkdir. Yəni bu məsələ Ermənistan rəhbərliyi ilə dəfələrlə müzakirə edilib. Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq Ermənistanla arasında sülh müqaviləsi imzalamaq üçün beş prinsipi təklif edib. Ermənistan təkliflərlə bağlı tam razılığını bildirsə də, sonradan öz havadarlarının dediyini edərək razılaşmaları pozur. Paşinyan hələ də anlamır ki, bu məsələnin həll yolu yalnız Azərbaycan və Ermənistan arasında anlaşmadan sonra mümkündür. Başqa formada bunun həlli yolunu tapmaq mümkün deyil. Yalnız bu istiqamətdə aparılan danışıqlar sülh sazişinin bağlanmasına imkan verəcək".

**İsmayıl Qocayev**

# Ermənilər Qarabağ savaşından beziblər

## Nikol Paşinyan erməni cəmiyyətini sülhə hazırlamağa cəhd edir



**Ermənistan parlamenti Qarabağ separatçılarının birgə iclas keçirmək təklifini rədd edib. Ermənistanın "Hraparak" nəşrinin məlumatına görə, separatçılar birgə "parlamentlərarası komissiyanın iclasları"nın çağırılması ilə bağlı Ermənistan parlamentinə bir neçə dəfə sorğu göndərib.**

Hətta "iclasın" onlayn rejimdə keçirilməsi təklif olunub. Lakin Ermənistan parlamentinin rəhbərliyi bu müraciətlərə cavab verməyib. Bir müddət qabaq xəbər yayıldı ki, Qarabağda yaşayan ermənilər vaxtı bitmiş pasportları ilə bağlı İrəvana müraciət etsələr də, onlara "yox" cavabı verilib. Bəzi ekspertlər İrəvan və separatçılar arasında soyuq münasibəti Nikol Paşinyan hökumətinin Qarabağ məsələsindən vaz keçməsi kimi dəyərləndiriblər. Onların fikrincə, Paşinyan Qarabağdakı ermənilərin Azərbaycanın daxili işi olduğunu qəbul edir. Ona görə də separatçılara qapıları bağlayır.

**Politoloq Azər Rəşidoğlu "Şərq"ə açıqlamasında bildirib ki, Nikol Paşinyan erməni cəmiyyətini sülhə hazırlamağa cəhd edir. Analitikin sözlərinə görə, hazırda erməni cəmiyyətinin siyasi indikatoru Paşinyana müxalif olan revanşist siyasi qüvvələrdir:** "Onlar elə də güclü deyil və bütün bunlar onu göstərir ki, cəmiyyət daha çox Paşinyanı müdafiə edir. Ermənilər Qarabağ savaşından beziblər. Lakin Paşinyan səmimi deyil. O üzdə bir şey deyir, əməldə tamam başqa bir şey edir. Paşinyan özünü sülhpərvər siyasətçi kimi göstərməyə çalışır. Bu, ona Qərblə münasibətlərdə lazımdır. Hazırda ABŞ çox böyük fəallıq və konstruktivlik nümayiş etdirir. Avropa İttifaqı da böyük fəallıq göstərir. Əgər Paşinyan əvvəlki illərdə olduğu kimi hərbi ritorika sərgiləsə, Qərbin ona olan marağı sönə bilər və hakimiyyətinin ilk illərində olduğu kimi, o, yenə də Qərb üçün maraqsız siyasi fiqura çevrilər".

*Analitikin sözlərinə görə, Qərb R.Koçaryandan və S.Sarkisyandan fərqli olaraq münaqişənin nizamlanması baxımından daha konstruktiv mövqedə olan Paşinyanı dəstəkləyir:* "Vaşinqton özünün fəallığının səbəbini gizlətmir. Amerikalı diplomatlar açıq şəkildə bəyan edirlər ki, nə qədər ki, Rusiyanın başı Ukrayna müharibəsinə qarışıb, Bakı ilə İrəvan sülh sazişi imzalamağa çalışmalıdır. Paşinyan anlayır ki, Qarabağdan imtina etməsə, sülh olmayacaq. Sülh olmasa, Qərb ac Ermənistana kreditlər ayırmayacaq. Kredit olmayacaqsa, Rusiya Paşinyanı devirə biləcək. Bu baxımdan, Nikol açıq şəkildə Qarabağdan imtina etməyə məhkumdur".

**İsmayıl Qocayev**



# İndiki sülh danışıqları əvvəlkilərdən köklü surətdə fərqlənir

## Birincisi, Azərbaycan Laçında sərhəd-nəzarət buraxılış məntəqəsi qurub, bu prosesləri dəyişdirir

**Vaşinqtonda Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ABŞ dövlət katibi Entoni Blinkenin iştirakı ilə görüş keçirilib.**

Danışıqların bir neçə gün davam edəcəyi gözlənilir.

Qeyd edək ki, üçtərəfli görüşdən əvvəl Blinken Ararat Mirzoyan və Ceyhun Bayramovla ayrı-ayrılıqda görüş keçirib.

**Görüşün vacib olduğunu deyən siyasi şərhçi Elşən Məcidov "Şərq"ə bildirib ki, danışıqlar ciddi sürətlə gedir:** "Hazırda sülh müqaviləsinin 4-cü variantının müzakirəsi gedir. Bu isə müəyyən detalların dəqiqləşdirildiyi deməkdir. Həmçinin görüşün uğurla yekunlaşması, mayın sonu və ya iyunun əvvəlində sülh sazişinin liderlər səviyyəsində imzalanmasına yola aça bilər. Sözsüz ki, burda bir çox ekspertin fikri var ki, əvvəllər də Azərbaycan və Ermənistan arasında kifayət qədər razılıqlar əldə edilib. Ancaq bu, Ermənistanın daha sonra təxribatlar törətməsi və üçüncü qüvvələrin müəyyən bəyanatlar verməsi ilə yekunlaşıb. Məsələn, Makronun əsassız bəyanatları, Rusiyanın Vardanyan layihəsi, Ermənistan tərəfinin sentyabr təxribatları və s. Bütün bunlar isə əldə edilən razılıqların əhəmiyyətini itirməsinə səbəb oldu.

> "Artıq ermənilər başa düşdü ki, Qarabağdakı separatçılar Azərbaycan silahlı qüvvələrinin mühasirəsindədir"

Düzdür, bu fikirlə razılaşmaq olar. Lakin ortada bir neçə fərqli məqam var. Biz hazırkı, 27 sentyabr və Praqa danışıqlarını götürərək təhlil apara bilərik. Çünki indiki vəziyyət digər iki danışıqdan köklü surətdə fərqlənir. Birincisi, Azərbaycan Laçında sərhəd-nəzarət buraxılış məntəqəsi qurub. Bu, prosesləri dəyişdirir. Yəni artıq ermənilər başa düşdü ki, Qarabağdakı separatçılar Azərbaycan silahlı qüvvələrinin mühasirəsindədir və baş tutacaq antiterror əməliyyatlarına Ermənistandan təsir baş tutmayacaq.

Digər tərəfdən, Azərbaycan danışıqların getdiyi müddətdə, nəzarət-buraxılış məntəqəsi ilə yanaşı, gömrük elementlərini də nümayiş etdirdi. Bu da rəsmi İrəvana bir mesajdır ki, əgər siz Qarabağdakı "nüfuzunuzdan" yapışsanız, Azərbaycan onu da sıfır səviyyəsinə endirəcək. Ümumiyyətlə, Ermənistanın Qarabağdakı yeganə nüfuzu verdikləri 400 milyon civarında dotasiyadır. Yalnız bu pulun hesabına Qarabağdakı separatçılar mövcuddur. Bakı isə gömrük postlarını yerləşdirməklə onlara göstərmək istəyir ki, əgər siz Azərbaycanla razılığa gəlməsəniz, biz gömrük buraxılış məntəqəsi qura və Qarabağa Ermənistandan gəlib-gedən bütün yüklərə gömrük rüsumu tətbiq edə bilərik. Bu isə separatçılara ayrılan pulun vergi formasında Azərbaycan büdcəsinə axması deməkdir".

*Analitik əlavə edib ki, görüşlər arasındakı digər fərq isə 27 sentyabr və Praqa müzakirələri zamanı Rusiyanın Cənubi Qafqazdakı mövqeyinin güclü olmasıdır:* "Dekabr və yanvar ayında Moskvaya qarşı tədbiq edilən yeni sanksiyalardan sonra, Rusiyanın gəlir imkanları zəiflədi. Statistikaya əsasən, Rusiya cəmi 20 faiz neft-qaz ixracını Asiyaya tərəf çevirə bilib. Bu isə Moskvanın neft-qaz gəlirlərinin keçən illə müqayisədə 40 faiz itirməsinə gətirib çıxarıb. Gəlirlərin aşağı düşməsi ilə Rusiya Ermənistana və Azərbaycana bir o qədər də təzyiq göstərə bilmir. Üçüncü fərq isə Moskva və İrəvan arasındakı münasibətlərin kəskinləşməsidir.

Artıq Ermənistan bacardığı qədər Rusiyadan uzaqlaşmaq istiqamətində mühüm addımlar atır. Kreml isə İrəvana tədbiq edə biləcəyi təzyiqləri daha da kəskinləşdirməyə çalışır. Digər tərəfdən, Ermənistanın Qərb üçün də əhəmiyyəti azalıb. Çünki onların Rusiyaya sanksiyalardan yayınmaq üçün kömək etməsi barəsində birbaşa və dolayı ittihamlar var. Həmçinin aprel ayı ərzində "The New York Times"də, bu gün isə "Wall Street Journal"da Ermənistanın sanksiyalardan yayınmaqda Rusiyaya kömək etməsi barəsində məqalələr dərc edilib.

Bunlar isə bir xəbərdarlıq xarakteri daşıyır. Yəni Qərb Ermənistanın Ukraynanı bombalamaqda Rusiyaya kömək etməsini göstərərək, onlara qarşı sanksiya tətbiq edir. Bu üç əsas fərq isə hazırkı danışıqlarda müəyyən irəliləyişlərin əldə olunacağını deməyə imkan verir".

**Nihat Müzəffər**

# Heç kim heç kimin səlahiyyətinə qarışmır

## İcra hakimiyyəti orqanları əhali, səlahiyyətli nümayəndələr ərazi ilə məşğuldur

**Milli Məclisin hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev Prezidentin xüsusi nümayəndələri ilə icra başçılarının eyni funksiyanı yerinə yetirdiyini deyib.**



Deputat bildirib ki, konstitusiyanın 124-cü maddəsində qeyd olunur ki, yerlərdə icra hakimiyyətini yerli icra hakimiyyətinin başçıları həyata keçirirlər: "Hazırda cənab Prezident tərəfindən səlahiyyətli nümayəndələr təyin olunur. Həmin səlahiyyətli nümayəndələr faktiki surətdə, bir çox hallarda icra başçılarının səlahiyyətlərinə aid olan funksiyaları yerinə yetirirlər. Konstitusiyaya görə isə yerlərdə icra hakimiyyəti funksiyası yerli icra başçılarının səlahiyyətlərinə aid olmalıdır. Ona görə də buna aydınlıq gəlməlidir. İcra orqanı olduğuna görə subardinasiya və ierarxiya olmalıdır. Məsələn, mənim üçün aydın deyil ki, yerlərdə Prezidentin səlahiyyətli nümayəndələri hansı səlahiyyətlərə malikdirlər. Onlar icra başçılarına göstəriş verə bilərlərmi? Yaxud əksinə, icra başçıları onlara göstəriş verə bilərmi, yaxud səlahiyyətli nümayəndələr icra başçılarına tabedirlərmi? 2012-ci ildə cənab Prezident tərəfindən "Yerli icra hakimiyyəti orqanları haqqında" Əsasnamə təsdiq olunub. Bu gün səlahiyyətli nümayəndələrin vəzifəsinə aid olmuş bir çox məsələlər həmin əsasnamə ilə də yerli icra hakimiyyəti başçılarına şamil olunur. Konstitusiyada da qeyd olunub ki, Azərbaycanda dövlət hakimiyyəti hakimiyyətlərin bölgüsü prinsipi əsasında həyata keçirilir. Lazım olarsa bu məsələni qanunvericilik aktları ilə tənzimləməliyik. Mən bu məsələni diqqətinizə çatdırmağı özümə borc bildim".

**Milli Məclis sədrinin birinci müavini, Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli qeyd edib ki, Prezident Konstitusiyaya görə səlahiyyətli nümayəndəlliklər yarada bilər:** "İcra hakimiyyəti orqanları əhali, səlahiyyətli nümayəndələr ərazi ilə məşğuldur. Heç kim də heç kimin səlahiyyətinə qarışmır".

**İsmayıl**

# Hulusi Akarın çatdırmaq istədiyi mesaj aydındır

## Demək istəyir ki, "Azərbaycanla strateji müttəfiqik, ağlınızı başınıza yığın"

**"Balkanlarda, Qafqazda, Orta Şərqdə və Qaradənizdə Türkiyə olmadan hansısa proses baş verə bilməz".**

**Bunu Türkiyənin milli müdafiə naziri Hulusi Akar Kayseridə şagirdlərlə görüşündə deyib.**



O bildirib ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın liderliyi altında beynəlxalq münasibətlər sistemində konkret mövqe ortaya qoyur: "Müdafiə, təhlükəsizlik, diplomatiya, iqtisadiyyat və sosial sahədəki uğurlarımız buna imkan verir. Daha da irəli getməyimiz üçün fəaliyyətimizi davam etdirəcəyik".

Nazir son dövrdə görülən işlərdən də danışıb: "Bəziləri "TCG Anadolu" desant gəmisini, "Togg" milli avtomobilimizi tənqid edir. Bu, səhv yanaşmadır. Əlbəttə, işlərimiz davam edəcək. "ATAK-1" helikopterini istehsal etmişdik. İndi "ATAK-3" ə keçmişik. Hər versiya əvvəlkindən daha təkmildir. Biz öz istehsalımız olan silahlara, texnologiyaya sahib çıxmalıyıq".

**Hulusi Akarın açıqlamasını "Şərq"ə dəyərləndirən siyasi şərhçi Kənan Novruzov bildirib ki, istər Akar, istər Ərdoğan, istərsə də Çavuşoğlu açıqlamalarında Cənubi Qafqaz və Azərbaycandakı vəziyyəti xatırlatmaqla digər regional oyunçulara mesaj verirlər:**

"Ümumiyyətlə, İkinci Qarabağ savaşından sonra Cənubi Qafqazda yeni reallıq yaranıb. Bu reallığın müəllifləri isə Bakı və Ankaradır. Əgər Vətən müharibəsində Türkiyənin Azərbaycana diplomatik və hərbi dəstəyi olmasaydı, bəlkə də vəziyyət başqa ssenari xətti üzrə inkişaf edərdi və ya savaş daha uzun çəkərdi. Bu mənada artıq rəsmi Ankara proseslərin birbaşa iştirakçısıdır".

**Analitik əlavə edib ki, regionda suları bulandırmaq istəyən qüvvələr də az deyil:** "Rusiya, Fransa, İran, hətta ABŞ bu qüvvələr arasındadır. Düzdür, Türkiyə Rusiya ilə münasibətlərin pozulmasını istəmir. Həmçinin ABŞ ilə də NATO daxilində müttəfiqdir. Lakin münasibətlərin hansı səviyyədə olmasından asılı olmayaraq, Ankaranın müttəfiqləri və gücünü qəbul etməyənlər, regionda onun maraqlarını nəzərə almalıdırlar. Türkiyənin maraqları isə Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin qorunmasından yanadır. Yəni Ankaranın rəyi nəzərə alınmadan regionda heç bir proses ola bilməz. Hulusi Akarın da çatdırmaq istədiyi budur. Onun açıqlamaları həm də Azərbaycanla hədə-qorxu dili ilə danışmaq istəyən ölkələrə cavabdır ki, "biz Azərbaycanla strateji müttəfiqik, ağlınızı başınıza yığın".

**Nihat Müzəffər**

# Yerli TV-lərə baxanların sayı ən azı 10 dəfə azalıb

## Deputatlar bayağı verilişlərə görə telekanalları tənqid ediblər

**Parlamentin dünənki iclasında ”İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının tərkibində dəyişiklik edilməsi haqqında” məsələ də müzakirə olunub. Çıxış edən deputatlar bayağı verilişlərə görə telekanalları tənqid ediblər. Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bildirib ki, yerli TV-lərə baxanların sayı 5-6 il öncəki tamaşaçıların sayı ilə müqayisədə ən azı 10 dəfə azalıb. Səbəblər dərin və çoxşaxəlidir:**



### "Televiziyalara çirkli paltarlarla, çirkli dillə çıxırlar"

”Onlardan biri uğurlu proqram formatları yarada bilməmələri, verilişlərin yayım ənənəsi, milli xüsusiyyətləri, janrı, kontenti, hədəf auditoriya, aparıcı peşəkarlığı, təqdimat tərzi və s. aspektlərlə bağlıdır. Artıq 10 illərlə davam edən bayağı məzmunlu, heç bir sosial funksiya daşımayan şou-proqramların TV-lərin əsas simasına çevrildiyini görürük, onlar tədricən öz qarşılarına qoyduğu məqsədlərə nail olur. Üst-üstə 5-6 milyon ölkə əhalisinin yarıdan çoxunun instaqram izləyicisi olması onu göstərir ki, ekrandakı izləyiciləri ”xalq” hesab edən 3-4 aparıcının arxasında kifayət qədər zövqsüz və savadsız bir kütlə dayanır. Bütövlükdə, artıq 3-cü onillikdir ki, Azərbaycan tamaşaçısının sosial portreti, onun maraq və istəkləri tamamilə təhrif edilməkdə, dünyagörüş və mədəniyyəti, dəyərləri ciddi deformasiyaya uğramaqdadır. Bayağı şou proqramlarının ekranlarda getdikcə çoxalması qətiyyən təsadüfi deyil, əksinə, düşünülmüş və sistemli xarakter daşıyır. Yalnız kommersiya və biznes maraqları, milli-mənəvi dəyərlərin inkarı, ictimai rəydə ziyalı, alim, intellektual obrazların, Vətən müharibəsinin parlaq simalarının deyil, şou əhlinin - müğənni, rəqqasə, tamada və s. cəmiyyətə əsas ideal, dəyər kimi təqdim edilməsi nəticəsində bir neçə aparıcı və TV kanalı reklam və sərvət toplayır. TV-lərimizin siması Zəfərimizin parlaq tablosuna uyğun deyil”.

Deputat Razi Nurullayev İTV-də yayımlanan ”3D” verilişi haqda danışıb: ”İstərdim ki, o, ilk zamanlardakı formatına geri dönsün. O verilişin ruhu ciddi ictimai-siyasi deyildi, ciddi fəlsəfi fikirlər məkanı deyildi, o, siyasətçilər, ictimai xadimlər üçün şok terapiyası idi və belə də qalmalıdır. Təbii ki, insanların şəxsiyyətinə və mənliyinə toxunmadan. Siz siyasi, ictimai, elmi və digər sahələrdə çəkili insanları dəvət edin. Əgər onlar gəlməsə, narahat olmayın. Yerində başqa bir ”3D” otursun, suallar verin, cavablar alın. Maraqlı olsun, suallar kəskin olsun, digər verilişlərinizdə müzakirə olunan məsələlərdən tam kənar olsun. Bütün televiziyalara isə arzum budur ki, bizim efir məkanlarında sağlam tənqid səsləndirən verilişlərin sayı çoxalsın. Yalançı, boğazdan yuxarı təriflər, yaltaqlıq təbliğ edən verilişlər, yerli-yersiz təriflər ölkənin inkişafına yox, geriləməsinə səbəb olur. Düşük, bayağı, çığırtı-bağırtı olan verilişlər cəmiyyətimizin mədəni və intellektual səviyyəsinin aşağı düşməsinə səbəb olur. Onun üçün də gərək biz düşünək ki, televiziyalara hansı köməkliyi edək ki, onlar bu cür verilişlər üzərində reytinq qurub pul qazanmasınlar. Razıyam ki, onlara başqa mümkün mənbələrdən pul qazanmağa imkan yaradılsın ki, onlar maliyyə arxasınca düşüb cəmiyyətə lazımsız məlumatlar ötürməsinlər”.

### “Bu gün ənənəvi media sosial şəbəkələrə uduzur”

Deputat Ceyhun Məmmədov qeyd edib ki, əsas diqqət maarifləndirici verilişlərə yönəlməlidir: ”Azərbaycan telekanallarının artıq bir neçə dildə yayımlanmasına ehtiyac var. Bu gün ənənəvi media sosial şəbəkələrə uduzur. Ona görə sosial media siyasətinə də yenidən baxmalıyıq. Bəzən bir televiziya verilişinə min adam baxırsa, sosial mediada həmin verilişə milyonlarla insanın baxdığını görürük”.

### “Deputatları belə seçim qarşısında qoymaq düzgün deyil”

Deputat Sabir Rüstəmxanlı isə İctimai Televiziyaya təşkilatlar tərəfindən iki namizəd irəli sürməsini yanlış sayıb: ”Adətən, birinci namizəd kimdir, ona səs verilir. Deputatları belə seçim qarşısında qoymaq düzgün deyil. Bəlkə ikinci namizəd daha layiqlidir? Həmin namizədləri o təşkilatlar tanıyırlar və iki deyil, bir namizəd irəli sürsünlər ”. S.Rüstəmxanlı televiziyaları da tənqid edib: ”Heç bir insan çirkli paltarda küçəyə çıxmaz. Amma televiziyaya çirkli paltarlarla, çirkli dillə çıxırlar. Onların buna nə haqqı var?”.

### “5 manat qazanırsınız, millətin əxlaqını pozmağa çalışmayın”

Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov deyib ki, bəzi telekanallar başqa ölkələrdən götürdükləri verilişləri Azərbaycanda tətbiq edir: ”70 yaşlı kişini evlənmək üçün efirə dəvət edirlər. Televiziya evlənmə, boşanma yeridir? Rusiya başqadır, bizim mənəviyyatımız, əxlaqımız fərqlidir. Ona övladı, nəvəsi baxır. 5 manat qazanırsınız, başa düşürük, amma millətin əxlaqını pozmağa çalışmayın”.

### “Mədəniyyətimiz efirlərdə təbliğ olunmalıdır”

Parlamentin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva telekanalları Cənubi Azərbaycanda formalaşan mədəniyyəti diqqətdə saxlamağa çağırıb: ”Cənubi Azərbaycan, Borçalıdakı mədəni irs Azərbaycan mədəniyyətinə töhfədir”.

Qənirə Paşayeva deyib ki, Azərbaycanın mədəni coğrafiyasında yaranan mədəniyyətin İctimai Televiziyada, ümumən Azərbaycan telekanallarında təbliğinə diqqət yetirilməlidir.

**İsmayıl Qocayev**

**”İran 30 ilə yaxındır ki, Azərbaycanda milyardlarla pul xərcləyərək, özünün şəbəkəsini yetişdirir”. Bunu ”Şərq”ə açıqlamasında Güney Azərbaycanın milli fəalı, Güney Azərbaycan Televiziyasının (GünAzTV) rəhbəri Əhməd Obalı İran casus şəbəkəsindən danışarkən deyib.**



O vurğulayıb ki, bu agentlərin bəzilərinə İranda, bəziləri isə Azərbaycanda təlim keçirilib: ”Bunun haqqında Azərbaycan xüsusi xidmət orqanlarının məlumatı var və şəbəkənin sonunu gətirmək üçün əllərindən gələni edirlər. Lakin bu barədə cəmiyyəti də maarifləndirmək lazımdır. Çünki İran rejimi həm din faktorundan istifadə edərək fanatik bir qrup yaradıb, həm də Azərbaycandan bir qrupu İrana apararaq onlara

# İranın casus şəbəkəsindən tezliklə qurtulmaq olmayacaq

## Əhməd Obalı: ”Bu insanları həbsə atmaq kifayət etmir, həm də ölkədə maarifləndirmə işi aparılmalıdır”

farsmeyilli dini və hərbi təlimlər verib. Bu isə özünü zəmanət altına almaq istəyən rejimin davamlı siyasətidir. Onlar din faktorundan istifadə edərək, Məşhədə, Kərbəlaya zəvvar daşıyıb və farsmeyilli insanlar yetişdirib. Ümumiyyətlə, İran dövləti farsçılıq üzərində qurulduğuna görə, türk amili olan Şimali və Cənubi Azərbaycan onun gözündə düşmən sayılır. Bu düşmənçilik isə ermənilərə dəstək və Azərbaycan əleyhinə açıq-aşkar fəaliyyətdə özünü göstərir”.

Ə.Obalının sözlərinə görə, Azərbaycan illərdir İran agentlərinə qarşı inamlı mübarizə aparsa da, onların sonu gəlmir: ”Bu isə təbiidir və tezliklə bu şəbəkədən qurtulmaq olmayacaq. Onların davamlı üstünə gedilməli və şəbəkələrini dağıdaraq yenidən qruplaşmalarına imkan verilməməlidir. Digər tərəfdən, bu insanları həbsə atmaq kifayət etmir. Həm də ölkədə maarifləndirmə aparılmalıdır. Çünki İran şiə məzhəbini farsçılığın qulluğunda olan bir amil kimi gücləndirib. Şimali və Cənubi Azərbaycandakı ziyalılar millətin bu kəsimini aydınlatmalıdır. Çünki dini İrana yapışdırmaq və şiəliyi farsların qulluğunda göstərmək islamın əleyhinədir. Digər tərəfdən, molla rejimi təkcə cəmiyyət arasında yox, həm də Azərbaycanın siyasətində, akademiyalarında və jurnalistlərin arasında özünə yer açıb. Yəni hərtərəfli hazırlığı var. Bu səbəblə də casus şəbəkəsini çökdürməklə paralel olaraq, irançılıq qanunları toplumun bütün kəsimlərindən təmizlənməlidir. Biz də Güney Azərbaycan televiziyası olaraq bu işdə boynumuza düşən milli vəzifəmizi icra edirik. Yəni GünAz TV-yə baxanlara azərbaycançılıq ideyasının ən vacib önəm kəsb etdiyini, din və məzhəbin isə insanla Allah arasında bir amil olduğunu çatdırırıq”.

Qeyd edək ki, polis əməkdaşlarının *keçirdiyi xüsusi əməliyyat zamanı narkotik vasitələrin satışından maliyyələşərək Azərbaycanda dini radikalizmin təbliğinə və digər pozuculuq fəaliyyətlərinə cəlb edilən 16 nəfər tutularaq istintaqa təhvil verilib.*

*Saxlanılan şəxslər dini anlayışı olmayan narkotik aludəçilərini başqa-başqa şəxslərin əli ilə yardım adı altında əməkdaşlığa cəlb edərək narkotik vasitələrin satışını təşkil etməklə ”kərimə dövləti”nin əlaqələrini dərinləşdirməyə çalışıblar.*

*Əsasən İrandan idarə edilən dini-siyasi mərkəzlərin tapşırıqlarını yerinə yetirən şəxslərin məqsədi narkotik aludəçilərini, xurafata meyilli şəxsləri öz çirkin niyyətlərinə alət etmək olub.*

*Polis tərəfindən ifşa olunan növbəti şəbəkə üzvlərinin əlaqələri, onların pozuculuq fəaliyyəti haqqında sosial şəbəkə hesablarında xeyli inkarolunmaz faktlar var.*

**Nihat Müzəffər**



# Rusiya ABŞ-da aparılan danışıqlardan narahatdır

## ”Kremlin mesajı budur ki, Bakı və İrəvan Vaşinqtonun və ya Brüsselin vasitəçiliyi ilə sülh sazişi imzalamamalıdır”

**Kremlin mətbuat katibi Dmitri Peskov ABŞ dövlət katibi Entoni Blinkenin iştirakı ilə Vaşinqtonda Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünü şərh edib.**

Peskov bildirib ki, Rusiya, Ermənistan və Azərbaycan liderlərinin üçtərəfli sazişləri istisna olmaqla, Qarabağ məsələsinin həlli üçün başqa hüquqi əsaslar yoxdur: ”İki ölkə arasında mövcud problemlərin həlli və regionda gərginliyin azaldılmasına yönəlmiş bəzi birgə fəaliyyət və addımların mümkün inkişafı Rusiya ilə birgə imzalanmış həmin üçtərəfli sənədlər əsasında mümkündür. Hələlik nizamlanmaya kömək edəcək başqa hüquqi əsaslar yoxdur. Bu üçtərəfli sənədlər tamamilə alternativsizdir. Təbii ki, bu əsasda nizamlanmaya kömək edə biləcək istənilən yardım alqışlanır, lakin biz onu da bilirik ki, nizamlanmanın əsasını bulandıran müxtəlif cəhdlər var ki, bu da uzunmüddətli perspektivdə nəticə verməyə bilər”.

**”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, Kreml bu mesajı ilə demək istəyir ki, Bakı və İrəvan Vaşinqtonun və ya Brüsselin vasitəçiliyi ilə sülh sazişi imzalamamalıdır:** ”Kreml açıq-aşkar ABŞ-nin vasitəçiliyi ilə Vaşinqtonda xarici işlər nazirlərinin üçtərəfli görüşündən və müzakirələrindən narahatdır. Ancaq Kreml məsələləri qarışdırır. Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 2020-ci ilin 10 noyabrında imzaladıqları üçtərəfli bəyanat Qarabağla bağlı məsələləri tənzimləyir. Vaşinqtonun hazırkı vasitəçiliyinin isə Qarabağa dəxli yoxdur. Əsas məqsəd Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasıdır. Rusiya bu prosesə ona görə mane olmaq istəyir ki, sülh sazişi Vaşinqtonun vasitəçiliyi ilə imzalanarsa, Rusiyanın Cənubi Qafqaza təsir imkanları daha da azalacaq”.

**İsmayıl**

# Tikinti bumu səngiyib

## Yaxın gələcəkdə tikinti şirkətləri köhnə binaları sökmək istəməyəcək

**”Fəxr ediləsi haldır ki, ölkəmizdə tikinti işləri yüksək səviyyədə davam edir. Lakin təəssüf ki, hələ də fırıldaqçılıqla məşğul olan tikinti şirkətləri var. Vətəndaşlardan pulu alıb, onları aldadaraq yubadırlar”.**



### "Çünki bir neçə sakinin binadan çıxmaması səbəbindən tikinti şirkətləri mənzil satdıqları şəxslər qarşısındakı öhdəliklərini yerinə yetirə bilmir"

Bu sözləri Milli Məclisin deputatı Rüfət Quliyev Parlamentin plenar iclasında deyib. Onun sözlərinə görə, bu şirkətlərdən biri də məhz ”Bakı İnşaat” MMC-dir: ”Həmin şirkətlə bağlı bizə rəsmi məktublar daxil olur. İnsanların pulunu alıb 4-5 aydır ki, yubadırlar. Köməkçim dəfələrlə həmin şirkətin rəhbəri ilə əlaqə saxlamaq istəsə də, zənglərə cavab verilmir, söhbətdən qaçırlar. Belə şirkətlərə qarşı müvafiq tədbirlər görülməlidir”.

**Əmlak eksperti Elnur Fərzəliyev isə ”Şərq”ə açıqlamasında deyib ki, tikintinin yubanmasının tək günahkarı MTK-lar deyil, bəzən vətəndaşlar da tikintinin dayanmasına səbəb olur:** ”Bilirsiniz ki, Bakıda istismar müddətini başa vurmuş binaların sökülməsi daha əvvəlki kimi pilot layihə üzərindən aparılmır. İndi bu işi özəl şirkətlər həyata keçirir. Tikinti şirkəti sökdüyü mənzilə görə artıq sahə və təmirli mənzil verir. Bina sökülərkən bina tam hazır olanadək sakinlərin kirayə haqqını da tikintini həyata keçirən şirkət ödəyir. Köçmə xərci də tikinti şirkətinin üzərinə düşür. Lakin bir çox hallarda binada yaşayan bir neçə sakin əlavə kvadrat və ya mənzilin bazar qiymətindən daha yüksək məbləğ tələb edir. Bu zaman tikinti şirkəti ilə vətəndaşlar arasında yaşanan mübahisə aylarla uzanır, bəzi hallarda isə iş məhkəməlik olduğundan yeni binanın tikintisi yarımçıq qalır.

MTK ayrıca torpaq sahəsi alıb bina tikəndə bu cür problemlər yaşanmadığı üçün heç bir yubanma olmur. Amma köhnə binaları söküb yenisi ilə əvəzləyən şirkətlərlə bağlı bu cür problem çox yaşanır. Bu isə mənzil almaq istəyən insanların tikinti şirkətlərinə inamını azaldıb. Təsəvvür edin ki, hansısa bir vətəndaş bankdan kredit götürəndə bank özünü sığortalayır və vətəndaşdan həm zamin, həm də girov tələb edir. Amma tikinti şirkətləri mənzil alan vətəndaşların ödədikləri məbləği sığortalamır. Hətta mənzil sahiblərinə heç bir rəsmi qurum sökülən evinin yenidən müəyyən vaxta tikilib təhvil veriləcəyinə dair zəmanət vermir. Hər hansı səbəbdən bina tikən şirkətin binanı təhvil verə bilməməsi zamanı sakinlərin taleyinin necə olacağına zəmanət verən yoxdur. Buna görə müəyyən məsələlərdə dövriyyəyə dövlət orqanları girməlidir. Çünki bu gün Bakıda sakinlərin bir hissəsi köçürülmüş, digər hissəsi mənzilindən çıxmayan binalar var. Bu isə tikinti şirkətlərini artıq xərcə salmaqla yanaşı, tikinti işlərini yubadır”.

**Ekspertin sözlərinə görə, problemin həlli üçün dövlət tikinti şirkətlərinə şərait yaratmalı və onlara bir sıra güzəştlər etməlidir. Mənzillərin satışı isə MTK-lar tərəfindən deyil, rəsmi qurumlar tərəfindən həyata keçirilməlidir:** ” Öhdəliyi rəsmi dövlət qurumları öz üzərinə götürsə, vətəndaşlar da köhnə evlərinin sökülüb yenisi ilə əvəzlənməsinə bu qədər əngəl yaratmaz. Bu da tikinti sahəsinin inkişafına zəmin yaradar ki, bu da son nəticədə qəzalı binalar probleminin həlli deməkdir. Əks halda yaranmış vəziyyət səbəbindən yaxın gələcəkdə tikinti şirkətləri köhnə binaları sökmək istəməyəcək. Çünki bir neçə sakinin binadan çıxmaması səbəbindən tikinti şirkətləri mənzil satdıqları şəxslər qarşısındakı öhdəliklərini yerinə yetirə bilmir. Üstəlik, bina sakinlərinin əvəzinə kirayə pulu ödəyir və bu qədər xərcə rəğmən binanı da tikib təhvil verə bilmir.

Tikinti şirkətlərinin vətəndaşları aldatmasının səbəbi bu sahədəki nəzarətsizlikdir. 20 il əvvəl alqı-satqı prosesi hansı formada gedirdisə, bu gün də eyni formada qalıb. MTK tərəfindən vətəndaşlara verilən alqı-satqı müqaviləsi və maliyyə arayışının isə heç bir hüquqi hökmü yoxdur”.

**Şəymən**



# ANAMA sədri əhaliyə çağırış edib

## O, vətəndaşları bir daha diqqətli olmağa və təhlükəsizlik qaydalarına riayət etməyə çağırıb

**Azərbaycan Respublikası Minatəmizləmə Agentliyin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov son zamanlarda baş vermiş mina hadisələrinə münasibət bildirib.**

O, jurnalistlərə açıqlamasında vətəndaşları bir daha diqqətli olmağa və təhlükəsizlik qaydalarına riayət etməyə çağırıb. ”Təəssüflər olsun ki, mina hadisələri davam edir. Son 1 həftə ərzində ard-arda bir neçə mina hadisəsi baş verib. Bizim keçirdiyimiz maarifləndirmə tədbirlərinə, xəbərdarlıqlara, ərazilərdə yerləşdirilmiş təhlükə nişanlarına baxmayaraq, həmin ərazilərə daxil olurlar. Fürsətdən istifadə edib bir daha vətəndaşlarımıza diqqətli olmaları ilə əlaqədar çağırış edirəm. Xahiş edirəm ki, qoyulan qaydalara riayət etsinlər, işğaldan azad edilmiş ərazilərə qanunsuz səfərlərdən çəkinsinlər”.

# Ukraynada hərbi vəziyyət və ümumi səfərbərliyin müddəti 90 gün uzadılıb



**Ukraynada hərbi vəziyyət və ümumi səfərbərliyin müddəti 90 gün uzadılıb.**

APA xəbər verir ki, bu barədə Ukrayna Ali Radasının (parlament) deputatı Aleksey Qonçarenko bildirib.

*Qeyd edək ki, müvafiq qanun layihələri bundan öncə ölkə Prezidenti Vladimir Zelenski tərəfindən təqdim edilib.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Elmi-Kütləvi, Mədəni-Maarif, Təhsil Proqramlarının Hazırlanması**

# Məktəb liderlərinin hazırlanması

## Proqram uğurla başa çatıb



**Müasir tələblərə cavab verən məktəb liderlərinin hazırlanmasına hədəflənmiş “Məktəb liderliyi” proqramının icrası başa çatdı. Qeyd edək ki, ötən ildən start verilən sözügedən proqram Elm və Təhsil Nazirliyi və Azərbaycan Dövlət Pedaqoji Universitetinin Strateji İnkişaf Mərkəzi ilə birgə icra olunurdu. Proqramın başa çatması münasibətilə dünən təntənəli bağlanış mərasimi keçirilib. Mərasimdə çıxış edən Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru professor Cəfər Cəfərov proqramın məqsədinin müasir çağırışlara cavab verən məktəb liderləri hazırlamaqdan ibarət olduğunu bildirib. Rektor proqramın uğurlu nəticələr verəcəyinə inandığını vurğulayaraq deyib:**

”Məktəb lideri məktəbin bütün maraqlı tərəfləri ilə düzgün kommunikasiya qurmalıdır. XXI əsrin məktəb liderlərinin ərsəyə gəlməsində ”Məktəb liderliyi” proqramı kimi layihələrin həyata keçirilməsinin böyük əhəmiyyəti var”. Cəfər Cəfərov gələcəyin məktəb liderlərinin hazırlanmasına töhfə verdikləri üçün məmnunluğunu ifadə edərək proqramın ilk məzunlarına uğurlar arzu edib. Daha sonra ADPU-nun strateji inkişaf məsələləri üzrə prorektoru Könül Pirverdiyeva ”Məktəb liderliyi” proqramında görülən işlərə dair təqdimatla çıxış edib. O bildirib ki, proqram yekunlaşdıqdan sonra məzunlar arasında direktor olanların sayı 29,1 faiz (14 nəfər) artıb. Proqramı bitirən məzunlar direktor, direktor əvəzi, sektor müdiri, direktor müavini, müəllim vəzifələrində çalışırlar. Könül Pirverdiyevanın sözlərinə görə, üç ay davam edən proqram çərçivəsində məktəbin idarə olunması və liderlik, tədrisin təşkili və idarə edilməsi, təhsildə qiymətləndirmə, məktəbdə heyətin idarə edilməsi və məktəbdə ünsiyyətin təşkili və idarə edilməsi mövzularında təlimlər keçirilib. Qardaş Türkiyənin Başkənt Universitetinin Təhsil İnstitutunun direktoru, ”Məktəb liderliyi” proqramında ”Məktəb idarəetməsi və liderlik” modulunun müəllimi Servet Özdemir çıxışında təhsildə liderliyin önəmindən danışıb. Daha sonra proqramın məzunları - S.Abdullayev adına 290 nömrəli tam orta məktəbin direktoru Yeganə Abdullayeva və 329 nömrəli tam orta məktəbin direktoru Elnur Mirzəyev proqramdakı təcrübələrindən danışıb, proqramın davamı üçün təkliflərini irəli sürüblər. Sonda ”Məktəb liderliyi” proqramını tədris edən müəllimlərə təşəkkür plaketləri, proqramın məzunlarına sertifikatlar təqdim edilib.

Xatırladaq ki, Elm və Təhsil Nazirliyinin Azərbaycan Dövlət Pedaqoji Universitetinin Strateji inkişaf mərkəzi ilə birgə təşkil etdiyi məlum proqram gələcəkdə dövlət ümumi təhsil müəssisələrində direktor vəzifəsində çalışmaq arzusunda olan pedaqoji kadrların hazırlanması məqsədi daşıyırdı. Proqramda iştirak üçün ümumi təhsil müəssisələrində çalışan və 5 ildən az olmayan pedaqoji staja malik ali təhsilli şəxslər üçün sənəd qəbulu elan edilib. Proqramda iştirak etmək istəyən şəxslər təqdim olunan elektron ünvan vasitəsilə qeydiyyatdan keçərək iştirakçı hüququ qazanırdı. İştirakçı seçimi isə üç mərhələdə - elektron sənəd qəbulu, test imtahanı və müsahibə - icra olunub. Test imtahanı mərhələsində namizədlərin tənqidi oxu, riyazi-məntiqi və yazı bacarıqları dəyərləndirilib. 3 ay davam edən proqram çərçivəsində müxtəlif mövzularda həftədə iki dəfə - cümə və şənbə günləri olmaqla təlimlər keçirilib. Proqram 5 modul üzrə 145 saatı əhatə edib. I Modul: Məktəbin idarə olunması və liderlik. II Modul: Tədrisin təşkili və idarə edilməsi. III Modul: Təhsildə qiymətləndirmə. IV Modul: Məktəbdə heyətin idarə edilməsi. V Modul: Məktəbdə ünsiyyətin təşkili və idarə edilməsi. Proqramda 50 nəfər namizədin iştirakı nəzərdə tutulur.

**Təhsil məsələləri üzrə ekspert Elşən Ramizoğlu ”Şərq”ə açıqlamasında qeyd etdi ki, müasir təhsil sistemlərində məktəb direktorlarına 3 başlıca tələb irəli sürülür:**

- Müasir təhsilin tələbləri budur ki, direktor məktəbə rəhbərliyi və menecmentliyi - məktəbin gündəlik həyatı ilə məşğul olmağı həyata keçirə bilməlidir. Rəhbərliyin həyata keçirilməsi, məktəb qarşısında duran bütün hədəflərin direktor tərəfindən aydın başa düşülməsi, problemlərin aşkarlanması və onların həlli, innovasiyaların tətbiqi və məsuliyyəti öz üzərinə götürmək deməkdir. Menecmentlik isə ortaya çıxan problemlərin sayını azaltmağa imkan verən sistemli yanaşmanı, təhsil xidmətlərinin göstərilməsində proqnozlaşdırmanı və davamlılığı nəzərdə tutur. Məktəb direktoru öz vəzifəsini bir neçə əsaslara söykənərək həyata keçirməlidir. Bunlar, dəyər və məqsədlərin anlaşılması, tədris proseslərini dərindən anlaması və bilməsi, şəxsi keyfiyyətlər, sosial bacarıqlar və şəxsiyyətlərarası ünsiyyət vərdişləridir. Bütün bunlar məktəb rəhbərinə qarşı üç əsas tələbi təşkil edir. Dəyər və məqsədləri anlama nədir? Direktor öz məktəbində tədris proseslərinin məqsədli inkişafına rəhbərlik edir. O, demokratik dəyərləri, ədalət prinsipini, etik davranış normalarını, fasiləsiz təhsilin vəzifələrini əldə əsas tutaraq özünü böyüməkdə olan nəslin təlim-tərbiyəsinə həsr edir. Məktəb direktoru təhsil prosesinin müxtəlif iştirakçıları arasında lider, vasitəçidir və yerli ictimaiyyətin maraqlarına xidmət edir. Bu özünü direktorun məktəbdə həyata keçirdiyi strateji məqsədlərdə, məktəb mədəniyyəti, ənənələri və müsbət ab-havada göstərir. Direktor məktəbdə tədrisin yüksək səviyyədə dəstəklənməsinə nəzarət edir və məktəb həyatında qarşılıqlı hörmət mühitinin yaradılmasına xidmət edir. Məktəb direktoru özünün peşəkar fəaliyyətində ömürboyu təhsil prinsipini dəstəkləyir, şagirdlər, müəllimlər, valideynlər və ictimaiyyət ilə birlikdə qarşılıqlı olaraq onun həyata keçməsinə çalışır. Məktəb direktoru təhsil prosesinin bütün iştirakçılarının təhsilin yüksək keyfiyyətinə can atması üçün şagirdlər, müəllimlər, valideynlər və ictimaiyyət arasında motivasiyanın yüksəlməsinə çalışır. Məktəb direktoru yüksək mənəvi, əxlaqi davranış nümayiş etdirməlidir. O, məktəb həyatının təşkilində yüksək etik dəyərləri rəhbər tutur və fəal vətəndaş mövqeyini əks etdirən demokratik dəyərlərə əsaslanır. Direktor həm şəxsən, həm də həmkarlarının iştirakı ilə yaranmış problemi dəqiq müəyyən etməli və onun müsbət həlli yollarını tapmalıdır. Direktorlar onların müdaxiləsinin nə zaman tələb olunduğunu başa düşməli və mümkün informasiyaların köməyi ilə öz qərarlarını qəbul etməyi və əməkdaşlarının nəzərinə çatdırmağı bacarmalıdırlar. Direktorlar səmərəli ünsiyyət qurmağı, təhsil birliyinin üzvlərini də əməkdaşlığa inandırmağı və buna cəlb etməyi, həmkarlarının fikirlərini dinləməyi, onları istiqamətləndirməyi, mübahisəli vəziyyətə birmənalı qiymət verməyi, əks-əlaqəni təmin etməyi bacarmalıdırlar. Ümid edək ki, ”Məktəb liderliyi” proqramının iştirakçısı olmuş və proqramı uğurla başa çatdırmış şəxslər sadalanan bu keyfiyyətlərə sahib rəhbərlər olacaq və beləliklə təhsilimizdə, həqiqətən də, müasir çağırışlara və beynəlxalq standartlara cavab verən məktəb rəhbəri - lider obrazı formalaşacaq.

***"İşlər düzgün qurularsa təhsilimizdə, həqiqətən də, müasir çağırışlara və beynəlxalq standartlara cavab verən məktəb rəhbəri - lider obrazı formalaşacaq"***

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# "Nə Rusiya, nə ABŞ, nə də İran..."

## Ermənistan diplomatiyası fiaskoya uğrayır

**”Düşmən ölkənin Azərbaycana qarşı təxribatları onların milli xüsusiyyətlərini ortaya qoyur”.**

Bunu ”Şərq”ə Siyasi İnnovasiya və Texnologiya Mərkəzinin sədri, politoloq Mübariz Əhmədoğlu Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın ”Ölkə çox ağır vəziyyətdədir” açıqlamasına münasibət bildirərkən deyib.

Onun sözlərinə görə, ermənilər özlərini dünya ölkələrinə ağıllı millət kimi təqdim etmək istəyirlər: ”Amma onlar anti-Azərbaycan antitürk fəaliyyətlərindən əl çəkməyəcəklər. Ermənilər Osmanlı imperiyasının parçalanmasında iştirak ediblər. ”Erməni-müsəlman” davası adlanan bu mübarizə elə o vaxtdan, təxminən 150-160 il bundan əvvəl başlayıb. Bu gün Türkiyə ilə barışmağa hazırdırlar.

Paşinyan dəfələrlə bildirib ki, Türkiyə ilə münasibətləri normallaşdırmağa meyillidirlər, hətta qondarma soyqırımı iddiasından da əl çəkərlər. Amma buna guya Azərbaycan imkan vermir. Azərbaycanı hazırda özləri üçün çox böyük təhlükə görürlər. Armen Qriqoryandan əvvəl Baş nazir Paşinyan Ermənistanın ağır vəziyyətdə olduğunu, təhlükəsizlik mexanizmlərinin işləmədiyini söyləyib. A.Qriqoryan məsələni bir az da aydınlaşdırdı. Guya, Rusiya onların təhlükəsizliyini təmin edə bilmədi.

Bu səbəbdən ermənilər Amerika, Avropaya müraciət etdilər. Lakin onlar da düşmən ölkənin mövcud problemini həll edə bilmədilər. Sonrakı müraciətlərini İrana ünvanladılar, ancaq yenə də nəticə əldə olunmadı. İndi də Hindistana üz tuturlar. Onlara elə dövlət lazımdır ki, öz əvəzlərinə Azərbaycanla döyüşdürüb, müharibə aparsınlar. Heç kim də bunu etməyib, etməyəcək. Ermənilərin ümidi Hindistanadır. Düşünürlər ki, Azərbaycanla Pakistan dost ölkələrdir. Hindistan isə Pakistanın qan düşmənidir. Belə olduğu halda, oradan ordu gətirərək, bizə qarşı istifadə etməyə çalışacaqlar. Əminəm ki, məlum niyyətləri də baş tutmayacaq”.

*Qeyd edək ki, Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan ölkənin çox ağır vəziyyətdə olduğunu, hazırda erməniləri qorumalı olan təhlükəsizlik mexanizmlərinin işləmədiyini bildirib. O, diqqətə çatdırıb ki, İrəvan Qərbə meyilli olmaqda ittiham edilir: ”Lakin biz Hindistanla da intensiv əməkdaşlıq edirik. Rusiya isə siyasi səviyyədə Ermənistanın təhlükəsizlik problemlərini həll edə bilməyəcəyini bəyan etmir”.*

**Sücayət Mehti**

# Məşədi Dadaş məscidinə yeni imam təyin edilib

## Dövlət Komitəsi doğru seçim edə bilir

**Bakıdakı Məşədi Dadaş məscidinə yeni imam təyin edilib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, Əli Şərbətov məscidə imam təyin olunub və o, Məşədi Dadaş məscidinin dini icmasına təqdim olunacaq. M.Qurbanlı həmçinin məscidə yeni təyinatların olacağını vurğulayıb: ”Məscidə əlavə təyinatlar da olacaq. Eyni zamanda qadın dini ayinlərinin icraçısı da təyin ediləcək. Məşədi Dadaş icmasının sədri və üzvləri hazırda məsciddədir”.**



***“Məscidlərə təyin olunan imamlar savadlı, elmli, əxlaqlı, vətənini, dövlətini sevən şəxslər olmalıdır”***

M.Qurbanlı bildirib ki, icmanın məsciddən çıxarılması ilə bağlı sosial şəbəkələrdə yayılan məlumatlar yanlışdır: ”İcma vaxtilə 11 nəfərlə qeydiyyatdan keçib: ”İndiki qayda ilə isə 50 nəfərlik bir icma heyəti olacaq. Oradan gedən adamlar mərhum Hacı Şahinin ətrafında olanlar idi. Bu adamların hüquqi baxımdan məscidə heç bir aidiyyəti yox idi. Onlar icma formalaşan zaman vətəndaş kimi icmanın formalaşmasında iştirak edə bilərlər. Amma faktiki olaraq, məscidin icması yerindədir və fəaliyyət göstərir”.

Qeyd edək ki, Əli Şərbətov əvvəl Saray qəsəbəsindəki ”Cümə” məscidinin imam müavini olub. O, 1990-cı illərin əvvəlində Liviya Ərəb Respublikasında dini təhsil alıb. Məşədi Dadaş məscidinin yeni imamı Bakı İslam Univesitetində də təhsil alıb və hazırda Bakı İslam Univesitetinin müəllimi kimi fəaliyyət göstərir. Xatırladaq ki, Məşədi Dadaş məscidinin əvvəlki imamı Hacı Şahin Həsənli bu il martın 2-də ürəktutmadan vəfat edib.

Təyinatı ilə bağlı açıqlama verən Ə.Şərbətov bu vəzifənin böyük məsuliyyət olduğunu bildirib: ”Allah Hacı Şahinə rəhmət eləsin. Belə sevilən, insanların qəlbinə yol tapmış adamı əvəz etmək əvvəllər çətin olacaq. Belə məsləhət elədilər, məni göndərdilər, biz də Allahın yolunda xidmət göstərəcəyik. Mən yox, istər başqa qardaşımız da olsa, gəlib burda fəaliyyət göstərməlidir. Əlimdən gələni edəcəyəm. Hacının yerini doldura bilmərik. Heç buna iddialı da deyilik. Əlimizdən gələn xidməti göstərməyə çalışacağıq”.

Milli Məclisin deputatı Ceyhun Məmmədov isə deyib ki, radikal düşüncə və təfəkkürdə olanlar məscidlərimizdə vəzifələrdən uzaqlaşdırılmalıdır. Onun sözlərinə görə, radikal dini təriqətlərə qarşı aparılan mübarizə eyni qaydada davam etdirilməlidir: ”Ölkədə bu cür insanların sayı on minlərlədir. Dini fəaliyyət sahəsində də islahatları sürətləndirməliyik. Bu gün Azərbaycanın suverenliyi və müstəqilliyi üçün ən ciddi təhdidlərdən biri siyasiləşmiş və radikal islamdır. Ona görə də bunun qarşısının alınması üçün müvafiq addımlar atılmalıdır. Bu düşüncə və təfəkkürdə olan insanlar da bizim məscidlərdə vəzifələrdən uzaqlaşdırılmalıdır. Bunu da kompleks tədbirlər şəklində həyata keçirməliyik. Bu işlər davamlı şəkildə olmasa zaman-zaman yenidən eyni problemlə üzləşəcəyik”.

Sözügedən təyinatla bağlı ”Şərq”ə açıqlama verən ilahiyyat üzrə fəlsəfə doktoru Əkrəm Həsənov deyib ki, məscidlər Allahın evləridir. Məscidlər yer üzərində olan ən xeyirli evlərdir, ibadət yeridir. Məscid sözü ərəbcə ”süsud” sözündən götürülüb, mənası səcdə edilən yer deməkdir. Bizdən əvvəlki ümmətlər ibadət üçün təyin olunan yerə məbəd, xristianlar kilsə, yəhudilər isə ”havra” deyirdilər: ”Məhəmməd Peyğəmbərin (s.a.s) Mədinədə ilk işi məscid tikməklə başladı. Bu məscid islam tarixinin səhifələrində islam dövlətinin idarəsini təmin edən bir şah damarı oldu və Məhəmməd peyğəmbərdən (s.a.s) sonra gələn müsəlmanların izlədikləri bir sünnət (yəni yol) oldu. Məhəmməd Peyğəmbər (s.a.s) məsciddə, elm məclislərində iştirak etməyə təşviq etmiş və belə demişdir: ”Bir dəstə Allahın evlərindən birində Allahın kitabını oxumaq, öz aralarında onu müzakirə etmək üçün toplaşsalar mütləq ilahi feyz həzrət və sakitlik onların üzərinə enər, rəhmət onları bürüyər, mələklər ətraflarına dolanar və Allah öz dərgahında olanların yanında onları xatırlayar”.

Namaz qılmağın, xüsusilə məscidə gedib camaatla namaz qılmağın böyük fəziləti, xeyri və faydası vardır. Allah-Təala ”Qurani-Kərim”də buyurur ki: ”Həqiqətən də (sizdə şübhə olmasın ki,) məscidlər Allaha aiddir. Ona görə də Allahla yanaşı heç bir kəsə ibadət etməyin (Cin surəsi 18-ci ayə)”. Bu ayə ölüb dünyadan köçmüş olan, eşidib görməyən, çağırışa cavab verməyən, gücü heç nəyə çatmayan, heç kimə kömək etmək səlahiyyətində olmayan pirləri, qəbirləri, daş və ağacları, dağları, dəmirli zəncirləri ziyarət edərək bununla Allaha yaxınlaşacaqlarını zənn edən savadsız, avam insanlara kifayətdir ki, onlar dini yalnız Allaha xas qılmaq üçün məscidlərə getsinlər, ən azından özləri getməsələr belə məscidə gedən övladlarına və ailə üzvlərinə mane olmasınlar. Məscidlərə təyin olunan imamlar savadlı, elmli, əxlaqlı, gözəl danışıq tərzi olan şəxslər olmalıdırlar. Vətənini sevən, dövlətini sevən, vətənpərvər, qəlbində insanlara qarşı mərhəmət hissləri olan şəxs olmalıdır. Bu səbəbdən mən düşünürəm ki, həm QMİ, həm də DQDK bu barədə doğru seçim edə bilir. Əli Şərbətovu isə şəxsən yaxından tanımıram. Əgər məsləhət görülübsə, ümid edirik ki, öz vəzifəsini layiqincə yerinə yetirər”.

**Şəymən**

# Məşqçi digər azyaşlı uşaqlara qarşı da qəddar olub

## Əgər beləl追 çox sərt və ciddi cəzalandırılmasa pis bir tendensiya yaranacaq



**Sumqayıtdakı idman məktəbində 7 yaşlı uşağın məşqçi tərəfindən fiziki xəsarətlər yetirilərək öldürülməsi geniş ictimai rezonans doğurub. Faciədən hiddətlənən insanlar məşqçinin ağır cəzalandırılmasını tələb edir.**

Sosioloq Elçin Bayramlının "Şərq"ə açıqlamasına görə, 2016-cı il təvəllüdlü Fərid Bakarov və qardaşı iki aydır Elm və Təhsil Nazirliyinin 1 nömrəli Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin müəllimi, idmançı Mehman Xəlilovun keçirdiyi sambo məşqlərində birlikdə məşq edirmişlər:

"M.Xəlilovun Fəridə qarşı təhlükəli fənd işlətməsi səbəbilə onun başının bədəninin altında qalması və boynunun qırılması qardaşının gözləri önündə olub. Məşq zamanı isə uşaqların anası onları zalın qapısı önündə gözləyirmiş. Müşahidə kamerasının çəkdiyi kadrlardan da görünür ki, məşqçi uşağa ardıcıl surətdə fiziki zorakılıq edir, zərbələr endirir, yerə çırpır, ayaq üstə dura bilməyən uşağı saçından tutub sürüyür.

Uşaq ciddi xəsarət aldıqdan sonra məşqçi ananı çağırıb və uşağının altına sidik qaçırdığını söyləyib. Bu zaman ana 7 yaşlı uşağın niyə sidik qaçırdığına təəccüblənib və ayaqlarının tutulduğunu görüb. Ana təcili yardım çağırmaq istəsə də, M.Xəlilov mane olub. Məşqçi uşağı qucağında piyada evə gətirib. Bu zaman uşaq qusub, sonra ana uşağı çimizdirib və görüb ki, halı yoxdur. Həmin vaxt Mehman da orada olub. Ana taksi çağırıb və uşağı Sumqayıt Şəhər Uşaq Xəstəxanasına aparıblar. Amma onun həyatını xilas etmək mümkün olmayıb.

F.Bakarovun qohumları "Oxu.az"a bildiriblər ki, "M.Xəlilov uşağı xəstəxanaya aparana kimi bütün Sumqayıtı taksi sürücüsünə fırladıb. Yəqin fikirləşib ki, ölsə, bundan olmasın. Normal insan uşaqla elə davrana bilməz. Ana uşağı ilə davranış videosunu görmədiyi üçün "işdir də, olub", - deyir. Dünən mürdəşir bizə deyir ki, uşaq döyülüb və bədəni qançırdır. Dedik, ola bilməz. Sən demə, vəhşi kimi döyübmüş".

Həmin gün uşaq məşqə getmək istəmirmiş. Ana onu güclə aparıb. Məşq zamanı ana 2 dəfə səs-küyə salona daxil olub, hər dəfə də məşqçi onu zorakı şəkildə zaldan çıxarıb.

Faktla bağlı Sumqayıt Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 126.3 maddəsi ilə cinayət işi başlanıb. Bu maddə 9 ildən 12 ilədək həbs cəzası nəzərdə tutur.

Kadrlardan aydın olur ki, M.Xəlilov təkcə Fərid Bakarova qarşı deyil, məşqdə iştirak edən digər azyaşlı uşaqlara da xüsusi qəddarlıqla davranıb. Bu səbəbdən də bu müəllimin ciddi psixi problemi olduğunu düşünürəm. Həm də o, tək deyil, ortalıq psixi xəstə ilə dolub".

Sosioloqun sözlərinə görə, əgər beləlari çox sərt və ciddi cəzalandırılmasa pis bir tendensiya yaranacaq. Öldürülənin doğmaları belələrini qanundan qabaq tutub cəzasını özü verəcək: "Adamlar cəzanın yüngül olduğunu görsələr, artıq qisası özləri alacaqlar. Bu səbəbdən cəzaların xeyli ağırlaşdırılmasını tələb edirəm. Üstəlik, psixi xəstələrin ortalıqdan yığışdırılıb dispanserlərə yerləşdirilməsini.

Valideynlərə isə məsləhətim odur ki, dəb xatirinə uşağınızı hara gəldi qoymayın. Seçərkən həyati dərəcəli fiziki xəsarət ehtimalı olmayan idman növlərini seçin, məsələn, üzgüçülük, gimnastika, futbol, voleybol və s. Əlbəyaxa döyüş növləri idman deyil, bu, insanların bir-birinə ağır fiziki xəsarət yetirməklə məşğul olduqları vəhşi bir döyüşdür. Bunları idman adlandırmaq idman adına təhqir olardı.

Uşağınızı idman kursuna qoyanda, heç olmasa, maraqlanın, müəllim kimdir, psixoloji vəziyyəti necədir, narkomandır, yoxsa yox. Kimə gəldi uşaq etibar etmək olmaz. Yeri gəlmişkən, sosial şəbəkələrdə məşqçinin narkoman olduğu, hədsiz aqressiv hərəkətlər etdiyi və bütün həyatının küçələrdə dava-dalaşlarda keçdiyi deyilir. Belə birisini Elm və Təhsil Nazirliyi nə deyib müəllim kimi işə götürüb, açıqlama verməlidir".

Yeri gəlmişkən, E.Bayramlı qeyd edib ki, 6-7 yaşlı usaqları ağır idman növlərinə, xüsusən də idmana aid olmayan əlbəyaxa döyüş növlərinə qoymaq olmaz. Ən azı 10 yaşı keçməlidir: "Qanuna görə də belə növlərə uşaqlar yalnız 9 yaşdan sonra qəbul olunur. Fəridi isə qeydiyyatdan kənar götürüblər. Deməк, nə valideynin savadı, düşüncəsi var, nə də məşqçinin. Qanunlara, məntiqə tüpürən insanlardan yaxşı nə gözləmək olardı ki? Belə məsuliyyətsiz valideynlərin və psixopat məşqçinin ucbatından körpə bir balamız məhv oldu.

Bəli, bu məqamlara fikir verməyəndə belə faciələrin başvermə ehtimalı yüksək olur və sonra hadisəni törədənlə yanaşı özünüzü də günahlandırmalısınız. Lakin bu, həyatını itirmiş balaları geri qaytarmayacaq. Sadəcə, ömür boyu vicdan əzabı ilə yaşamalı olacaqsınız".

**Şəymən**

# "Karqo şirkətlərinin sayı azalacaq..."

## Bu da vətəndaşların seçim imkanının azalmasına gətirib çıxaracaq



**"Karqo şirkətlərinin bağlanmasına səbəb ölkədəki oyun qaydalarıdır".**

Bu sözləri "Şərq"ə iqtisadçı Natiq Cəfərli bildirib. Onun sözlərinə görə, karqo şirkətlərinin əsas müştərisi "Trendyol" idi: "Vətəndaşların sifariş etdiyi məhsulların çatdırılması prosesini həyata keçirirdilər. Belə anlaşılır ki, bu sahədə də ciddi inhisarçılıq olacaq. Seçim imkanlarının məhdud olması nəticəsində də karqolar böyük şirkətlərlə rəqabət apara bilmir. Nəticədə ardarda bağlanır. Təəssüfedici haldır. Rəqabət olmadıqca, karqo şirkətləri azaldıqca, qiymətlər də yüksələcək".

*Qeyd edək ki, bir çox karqo şirkəti fəaliyyətlərini dayandırırlar. Bu da vətəndaşların seçim imkanının azalmasına gətirib çıxaracaq.*

**Sücayət Mehti**

# Azərbaycanda himayədar ailə olmaq istəyən ailələrin uçotu aparılacaq

**Azərbaycanda himayədar ailələrə verilmiş uşaqların və himayədar ailə (himayədar valideyn) olmaq istəyən ailələrin (şəxslərin) uçotu aparılacaq.**

Bununla bağlı məsələ Milli Məclisin dünən keçirilən iclasında müzakirə edilən Ailə Məcəlləsinə dəyişiklikdə öz əksini tapıb.

Belə ki, bununla bağlı Məcəlləyə yeni maddə əlavə edilir. Yeni maddəyə əsasən, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) himayədar ailələrə verilmiş uşaqların və himayədar ailə (himayədar valideyn) olmaq istəyən şəxsin (şəxslərin) vahid informasiya bazasını yaratmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi üzərindən dövlət orqanlarının (qurumlarının) apardığı elektron informasiya ehtiyatlarından (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) istifadə etməklə onların vahid uçotunu bu maddənin tələbləri nəzərə alınmaqla elektron formada aparır. Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edilib.

# Yaz fəsli gəldi, allergiya da gəldi

## Meşəyə və parka getmək tövsiyə olunmur

***Mütəxəssisin fikrincə, yaz fəslinin gəlişi ilə əlaqədar tozlanmadan əziyyət çəkənlərin yağışlı havada gəzintisi faydalıdır***

**Yaz fəsli gələndə allergiyası olanlar bəzi narahatlıqlarla üzləşirlər. Ağacların çiçək açması nəticəsində havada uçuşan toz hissəcikləri allergiyaya səbəb olur.**

Tozlanma havaya yayıldıqca ağız, burun və göz vasitəsilə ciyərlərə qıcıqlandırıcı təsir göstərir. Mütəxəssislərin sözlərinə görə, mövsümi allergiyalar martın əvvəllərindən iyulun ortalarına qədər davam edir. Bu da əsasən mövsümi çiçək və otların təsirindən yaranır. Allergiya xəstələri çiçəkləmə mövsümündən iki-üç həftə əvvəl dərman qəbul etməyə başlamalı, həmçinin əvvəlcədən xüsusi pəhriz saxlamalıdırlar.

Kliniki Tibbi Mərkəzin həkim-terapevti Jalə İbrahimovanın sözlərinə görə, allergik reaksiyaların səbəblərindən biri də bəzi yaz-yay qidalarıdır: "Göz qızarması, gözdə yanma, göz sulanması, burunda ödəm, quruluq, burun tutulması, burundan su axması, tez-tez asqırma allergik rinitin əlamətləridir. Bunlar ağacların çiçəklənməsi nəticəsində havada olan polenlərin qıcıqlandırıcı təsiri nəticəsində baş verir. Belə hallar olarsa, diaqnozun dəqiqləşdirilməsi üçün lor həkiminə və ya allerqoloqa müraciət etmək olar. Digər allergik reaksiyalardan biri də dəridə olan allergiyadır. Günəşli havada çox gəzdikdə günəşin təsirindən qızartı, səpkilər əmələ gələ bilər. Bundan



başqa bəzi yaz-yaz qidaları - meyvə-tərəvəz məhsullarının təsirindən də allergik reaksiyalar baş verə bilər. Vaxtında diaqnoz qoyulması üçün həkimə müraciət etmək lazımdır. Müəyyən qan testləri, dəri testləri, ağciyərin funksional testləri götürülür və nəticələrə uyğun olaraq müalicə aparılır". Həkim həmçinin bildirib ki, mövsümi allergiyası olan şəxslər küləkli, tozlu havada gəzməyi məhdudlaşdırmalıdır. Həkim müayinəsində olmaq isə vacib hesab olunur.

**Həkim-terapevt Sevinc Zeynalova isə "Şərq"ə açıqlamasında mövsümi allergiyaların xarakterik xüsusiyyətlərindən danışarkən deyib:** "Bu, özünü fərqli formada göstərə bilər, məsələn, allergik konyunktivit, gözün selikli qişasında qızarma, qaşınma, göz yaşı axması, allergik rinit - yəni burunun selikli qişasında qaşınma, burun qızarması, asqırma, burun axması ilə büruzə verə bilər və çox vaxt onu kəskin respirator virus xəstəlikləri ilə səhv salırlar. Mövsümi allergiya allergik faringit, allergik bronxit, boğazda olan qaşınma, tutmaşəkilli öskürək və hətta bronxial astma tutması ilə də nəticələnə bilər.

Hipoallergen pəhriz zamanı sitrus meyvələri, qoz, fındıq, balıq, kakao paxlası məhsulları, rəngli tərəvəzlər, meyvə və giləmeyvə, yumurta, bal, müəyyən ədviyyatlar, eləcə də yağlı şirin məhsulların istifadəsi istisna edilir, yaxud da ən azı ciddi şəkildə məhdudlaşdırılır.

Bir sıra mədə-bağırsaq xəstəliklərinin yaz-payız aylarında baş qaldırdığını bildirən həkim-terapevt deyib ki, mövsümi allergiyası olanlar həmin fəsildə adi allergenlərdən - məsələn, yumurta, süd, şokolad, pomidor və s. məhsullardan uzaq olmalıdırlar. Həmin məhsullar allergen olduğuna görə mövsümi allergiyası olanların ondan istifadəsi allergik reaksiyaları kəskinləşdirə bilər. Allergiya xəstəsi olan evdə heyvan saxlanılırsa, onun da təmizliyinə diqqət yetirilməli və yataq otağına buraxılmamalıdır".

Mütəxəssisin fikrincə, çiçəkləmə dövründə yaz fəslinin gəlişi ilə əlaqədar tozlanmadan əziyyət çəkənlərin yağışlı havada gəzintisi faydalıdır, lakin meşəyə və parka getmək tövsiyə olunmur. Bundan başqa əgər otaqda kondisioner yoxdursa və mənzilin havalandırılması lazımdırsa, o zaman tozcuqların otağa daxil olmasının qarşısını almaq üçün pəncərələrə cuna tutmaq olar. Hava nəmləndiricisi almaq və rütubət səviyyəsini saxlamaq da məsləhət görülür.

**Şəymən**

**Elanlar**

Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci tərəfindən Qulizadə Şəhram Kamil oğluna № 022529 verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Bayramov Rasim Bafadar oğlunun (Şabran RPŞ tərəfindən verilmiş şəxsiyyət vəsiqəsi AZE 16260260) adına məxsus VAZ 2107, 50-CZ-773 dövlət nişanlı avtomaşının qeydiyyat şəhadətnaməsi (texpasport) itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri, Yasamal rayonu, H.B.Zərdabi küçəsi 3166 məhəllə, bina 6, mərtəbə 4, mənzil 39A, 88.4 kv, Abbasov Zahir Mahir oğluna məxsus evin maliyyə arayışı və müqaviləsi itdiyi üçün etibarsız sayılır.

# "Səni vicdanınla baş-başa buraxıram"

## Stilist Anar Ağakişiyev Xalq artisti haqqında növbəti dəfə açıqlama yayıb



**Bir neçə gündür ki, istər sosial şəbəkələrdə, istərsə də efirdə Xalq artisti Aygün Kazımova haqda qalmaqallı fikirlər səsləndirən stilist Anar Ağakişiyev növbəti dəfə açıqlama yayıb.**

"Şərq" xəbər verir ki, Kazımovanın illər öncə onu təhqir etdiyini söyləyən Anar həm də müğənninin səs yazısını paylaşıb.

"Hər kəsin maskası, siması ortaya çıxdı. Mən faktsız danışmıram. Heç bir fəxri ad sənə imkan vermir ki, kimisə təhqir edəsən. "Kosoyu" da, üzr istəyirəm ifadəmə görə, koru da, lalı da, şikəsti də, dönə-dönə hər kəs bir ananın övladıdır. Buraxıram səni vicdanınla baş-başa. Sən bilərsən, Allahın bilər! Məni məcbur elədiniz ki, təhqirin nə olduğunu sizə sübutla göstərim! İllər öncə ATV kanalında yayımlanan "Xeyir ola" verilişində canlı yayımda məni təhqir edib, elə sala-sala "Kosoy Anar" deyib. Önəm vermədim. Yenə də anlayıram ki, hər bir insana yerində cavabını vermək lazımdır. Mən susduqca, elə bilir ki, həmişə susacağam. Və illər keçir, bu, davam edir. Dosta, tanışa haqqımda təhqiredici səsli mesajlar, fikirlər söyləyir.

Nə vaxta qədər susacağam?! Öz aləmində mənə ləq?b qoyub - "Kosoy". Mənim xarici ölkələrdə tanınmağım nədənsə onu narahat edir. Bu gün gördüyünüz videomüsahibə məhz bu səsli mesaja cavab idi.

Özü xarici ulduzla duet oxumaq üçün milyonlar ödəməsinə baxmayaraq, yalan məlumat yayır ki, guya mən dünya ulduzları ilə işləmək üçün ödəniş edirəm. Halbuki hər şey əksinədir. Çox səbr etdim, görürəm alınmır. Məni çox yaxşı tanıyırsız ki, atalar sözləri ilə yaşayıram: "Döymə taxta qapımı, döyərəm dəmir darvazanı!".

Anlamıram, həmin o xanım mənə nə verib ki, ala bilmir? Yollarımız, sənətimiz fərqlidir. Çərçivəsindən çıxıb, öz işinin peşəkarı olub və tələbatlı olmaq hər adamın işi deyil! Bu hələ əlimdə olan sübutların 0,001 faizidir. İndi anladınızmı mən boş-boş, durduğum yerdə fikir söyləmədim? Şükür Allaha ki, mənimlə işləmək üçün pul ödəyirlər.

Bununla da məsələ bağlandı. Nəsə danışmaq istəmirəm. Bir problem olmadığı halda məni efirdən təhqir edib. Səhərə qədər valideynim ona görə ağlayıb. Üstündən illər keçib, yollarımız ayrıdır. Yenə də ona-buna üç-dörd ay əvvəl, keçən il, ondan əvvəlki il belə mesajlar göndərir. Mən bunu qəbul etmirəm. Heç kimin ixtiyarı yoxdur ki, kimisə təhqir etsin. Həmin şərhi durduğum yerdə bildirmədim. Bir az da mənim hiss etdiklərimi yaşasın.

Zamanında cavab verməməyimə səbəb gənc, gücsüz olmağım, bəlkə də sosial şəbəkələrin olmamağı idi. Bu da onun cavabı. Özündən 20 yaş balaca, fərqli sahədə olan insana qarşı dayandığı yerdə belə mesajlar atır. Şəxsən mənə göndərməyib.

Onda o güc yoxdur. Başqasına göndərib, gəldi mənə çatdı. Fəxri ad daşıyan xanıma bu cür danışıq tərzi yaraşırmı?".

**Samirə Ərəblinskaya**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA40060380300225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 1106



## Həbsxana hotel oldu

### Burada ən qatı cinayətkarlar saxlanılırmış

**Avstraliyada həbsxana hotelə dönüşdürülüb. "Şərq" xarici mediaya istinadən bildirir ki, bu, bir zamanlar məşhur olan Pentridge həbsxanasıdır.**

Həbsxana 1851-ci ildə tikilib. Burada ən qatı cinayətkarlar saxlanılırmış. Onlardan biri qatı cinayətkar kimi tanınan Ned Kelli idi. Ned Kellinin həyatı hətta filmlərə ssenari olub və maraqla izlənib. Ned Kelli Avstraliyada məşhur oğru, quldur, soyğunçu kimi tanınırdı, hərçənd xalq arasında ona rəğbət də olub. O, müstəmləkəçilik əleyhinə mübarizə aparan şəxs kimi də məşhurlaşıb. Onun cinayət dosyesində 16 polis əməkdaşının ölümü var. Deyilənə görə, N.Kelli oğrular yaxalamasın deyə, polisləri qətlə yetirirmiş. N.Kellinin saxlandığı və asıldığı həbsxana indi lyüks hotelə dönüşdürülüb. Həbsxananın dəhlizlərinin uzunluğu 6 kilometrdir. Həbsxananın qalın divarları inşaat işləri aparanları xeyli çətinə salıb. Təxminən 150 il istifadəsiz qalmış həbsxana artıq hotel kimi fəaliyyət göstərəcək. Həbsxananın geniş həyəti də istirahət zonasına çevrilib. Hoteldə qalanlar həbsxananın tarixi ilə tanış olacaq, məhbusların saxlandığı kameralarda dincələcəklər. Hotel-həbsxanada maraqlı eksponatlar da nümayiş olunur. Eksponatlar arasında məşhur quldur Ned Kellinin döyüş libası da sərgilənir. Həbsxananı hotelə dönüşdürənlər bunun turistlərin marağına səbəb olacağına və böyük gəlir gətirəcəyinə inanırlar.

**Məlahət**

## İnsan bədəninə bənzəyən kənd

### Görənlər heyrətə gəldi



**İtaliyanın Sicilliya adasında yerləşən Centuripe kəndinin yuxarıdan çəkilmiş görüntüsü insanların marağına səbəb olub.**

Bakupost.az xəbər verir ki, kənd "quş baxışı" çəkilmiş fotolarda insan bədəninə və dəniz ulduzuna bənzədilib.

Kənd məkandan-məkana keçişin rahat olması üçün bu cür dizayn edilib. Bu tip planlaşdırmaya daha çox dağlıq ərazilərdə üstünlük verilir.

*Qeyd edək ki, kəndin tarixi b.e.ə 5-ci əsrə gedib çatır.*



# 8 metr yarımlıq məzar

## Sahibi məzardan qalxıb döyüşə gedib

**Türkiyənin Sivas bölgəsində qəribə məzar aşkarlanıb. Məzarın böyüklüyünün görənləri heyrətə gətirməsi bir yana, haqqında rəvayətlər də dolaşmağa başlayıb.**

"Şərq" "NTV.com.tr"yə istinadən xəbər verir ki, məzar Sivasın Şarkışla əyalətinin Dikili kəndində aşkarlanıb. 8 metr yarım uzunluqdakı nəhəng məzarın vaxtilə o ərazilərdə yaşamış Şeyx Ziya baba adlı məşhur bir şəxsə aid olduğu güman edilir. Kəndə gəlib məzarı ziyarət edənlər dəqiqləşdirmə məqsədilə ölçür, qeydlər aparırlar. Kənd sakinləri Şeyx Ziya Baba haqqında rəvayətlərə inanır. Rəvayətlərdə Türkiyənin Kıbrıs müstəqilliyi uğrunda apardığı mübarizə zamanı Şeyx Ziya Babanın məzarından qalxaraq döyüşə getdiyi, zaman-zaman yenə geri dönüb namaz qılmaq üçün yaxınlıqdakı bulaqda abdəst aldığı və məzarının yanında namaz qıldığı söylənilir. Kənd sakini Haqqı Koç bu barədə kənd ağsaqqallarından eşitdiklərini deyib: "Yaşlı dədəm vardı. Danışırdı ki, bu məzarda uyuyan adam, qəbirdən qalxıb Kıbrıs savaşına gedib. Şeyx Ziya Babagil 7 qardaş olublar. Hamısının da məzarı bir-birilərini görəcək məsafədə qazılıb. Dədəm danışırdı ki, gecə sürahını su ilə doldurub, səhər qalxanda görüb ki, sürahı boşdu, içində su qalmayıb. Şeyx Ziya Babanın səhər ertədən sürahinin suyu ilə abdəst alıb namaz qıldığını görənlər olub. Bu məzarın uzunluğu 8 metr yarımdır. Görənlər səbəbini soruşur, amma biz də bilmirik".





**Məlahət**

## 10 milyonluq boyunbağısı ilə hər kəsi heyran etdi



**Moda dünyasının ən önəmli tədbiri olan Met Gala dünən gecə baş tutub.**

**Bakupost.az xəbər verir ki, məşhur müğənni Dua Lipa bu tədbirə 10 milyon dollarlıq boyunbağı ilə qatılıb.**

**Lipa 100 karatlıq brilyantla bəzədilmiş boyunbağısı ilə kameraların qarşısına keçib.**

**Dünyaca məşhur müğənni Met Gala-nın ən çox danışılan şəxsi olub.**

***Qeyd edək ki, Met Gala bu il 2019-cu ildə dünyasını dəyişən dizayner Karl Lagerfeldə ithaf olunub.***

## "Sihirli annem"in aktyoru evləndi



**"Sihirli annem" serialında Kərəm obrazına həyat verən aktyor Mişel Sedolin evlənib.**

**Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, aktyorun sevgilisi İrem Doğanla ailə qurub. Cütlüyün özəl günündən foto sosial şəbəkədə yayılıb.**

**Artıq ekranlardan uzaq olan aktyoru izləyicilər tanımaqda çətinlik çəkib.**

***Qeyd edək ki, Mişel sevgilisinə "Kim milyoner olmak ister" verilişində evlilik təklifi etmişdi.***

## "Sünbül Ağa" ailə qurub



**"Muhteşem Yüzyıl" serialındakı Sünbül ağa obrazı ilə populyarlaşan Selim Bayraktar ailə qurub.**

**Olay xəbər verir ki, sənətçi uzun müddətdir münasibət yaşadığı Emel Karaköse ilə evlənib. Cütlüyün toyu yaxın dostları və ailə üzvlərinin iştirakı ilə baş tutub.**



# Məşhurların inanılmaz görüntüləri

## Birisi soyundu, digəri alt paltarını göstərdi

**Nyu-Yorkda hər il Metropolitan Sənət Muzeyinin Kostyum İnstitutuna dəstək məqsədilə düzənlənən "Met Gala" gecəsinə məşhurlar yenə damğa vurub. "NTV.com.tr" xəbər verir ki, budəfəki mərasim dünyaca ünlü model Karl Otto Lagerfeldin xatirəsinə həsr olunub.**



Gecəyə damğa vuranlarsa məşhur aktyor, aktrisalar, müğənni və musiqiçilərin göz qamaşdıran görüntüləri, həm də ağlazərər libasları olub - əgər onlara libas demək mümkünsə. Məşhur aktyor Pedro Pascal qara-qırmızı kombinini şalvar deyil, şortla geyinməyi tərcih etməsiylə diqqət çəkib. Müğənni Lil Nas X bədənini bürünc rəngə boyayıb, mirvari və kristal naxışlarla bəzənib. "Grammy" mükafatçısı Doja Cat Karl Lagerfeldin şərəfinə təşkil olunmuş gecədə pişiyə "dönüb". Doja Cat mərhum Karlın sevimli pişiyi Kupettedən ilhamlandığını deyib. Müğənninin geyindiyi Oscar De La Renta imzalı ağ əlbisəsi pişik qulaqcıqlarıyla tamamlanıb. Karl Lagerfeldin pişiyi Kupetteni unutmayanlardan biri də tanınmış aktyor, "Oskar" mükafatçısı Jared Leto olub. Jared Leto "qırmızı xalı"ya nəhəng ölçülü pişik kostyumunda çıxıb və bütün diqqətləri üzərinə çəkib. Gecədə necə görünəcəyi maraq edilən isimlərdən biri də dünya "ulduzu" Rihanna olub. Rihanna "qırmızı xalı"ya "Valentino"dan hamiləliyini qabardan geyimlə çıxıb. Latın Amerikan musiqisinin sevilən ismi Bad Banni isə Met Gala "qırmızı xalısı"nda kişi geyim stilinə yenilik qatıb. Musiqiçi pencəyinin kürək hissəsində dərin dekolte açılmış geyimiylə nəzərləri üzərinə çəkə bilib. Müğənni Janelle Monae isə lap həngamə çıxarıb. Gecəyə "Thom Browne" imzalı avanqard geyimlə qatılan müğənni elə oradaca - "qırmızı xalı" üzərində üst geyimini soyunaraq alt paltarında dayanıb.

**Məlahət**

## "Google" kompaniyasından istefa verdi

### Süni intellekt bazasının qurucusu onun təhlükəsindən danışıb



**Süni intellekt proqramının əsasını təşkil edən neyroşəbəkənin qurucusu, böyük britaniyalı və kanadalı alim Ceffri Hinton həmin texnologiyanın potensial risklərindən açıq danışmaq üçün 10 ildən çox işlədiyi "Google" kompaniyasından istefa verib.**

Azərtac "The New York Times" nəşrinə istinadla xəbər verir ki, kompaniyada maşın təlimi alqoritminin hazırlanması ilə məşğul olan Ceffri Hinton öz kəşfinə görə qismən peşman olsa da, süni intellekt hazırlanmasının qaçılmaz olduğunu deyib. Mütəxəssisin narahatlığı bu texnologiyanın bəzi sahələrdən işçiləri sıxışdıracağı və yalan informasiya yayacağı ilə bağlıdır.

Bir müddət öncə isə amerikalı milyarder İlon Mask süni intellektin inkişafının bəşəriyyətin məhvi ilə nəticələnə biləcəyi barədə fikir yürütmüşdü. Onun fikrincə, süni intellekt sivilizasiyanı məhv etmək potensialına malikdir, səhv modelləşdirilən təyyarədən və pis yığılan avtomobildən daha təhlükəlidir. İlon Mask hesab edir ki, texnologiyaların inkişafı süni intellektin onu dayandıra bilməyəcək insanların əvəzinə qərar qəbul etməsinə gətirib çıxaracaq.

## Quru şampunlar xərçəng riski yaradır



**Quru şampundan tez-tez istifadə xərçəng riskini artırır. Tərkibində benzol olan quru şampunlar yağlı saçları olan insanların xilas vasitəsidir.**

"Medicina" xəbər verir ki, həkim-trixoloq Oleq Ruskixin sözlərinə görə, başın yuyulması proseduru baş dərisini yağdan, kəpəkdən, tozdan və digər çirklərdən təmizləmək üçün gigiyena prosedurudur.

Bir çox insan bir prosesə ən azı 20 dəqiqə vaxt sərf edir: saçlarını isladır, şampun çəkir, köpürtmə və s. Hazırda dəbdə olan şampunlardan biri də quru şampunlardır.

"Bu birləşmələrin çoxunda benzol var və bu maddə insan sağlamlığı üçün böyük təhlükə mənbəyidir.

Son elmi araşdırmada alimlər müəyyən ediblər ki, benzolla təmas müxtəlif növ şişlərə səbəb ola bilər. Bu maddə, geniş spektrli kanserogendir.

Benzol yaxşı uçuculuğa malikdir, buna görə də tənəffüs yollarına daxil ola və ağciyər şişinin inkişafına səbəb ola bilər.

Bundan əlavə, bu şampunlar dəri xərçəngi riskini artırır. Tərkibində benzol olan quru şampunlar ən yaxşı halda ləğv olunmalıdır".

Eyni zamanda, qeyd edək ki, benzol maye şampunların tərkibində yoxdur.